RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 278 (9157) ÇƏRŞƏNBƏ AXŞAMI, 20 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan-Səudiyyə Ərəbistanı: *investisiya və energetika sahələrində əlaqələr genişlənir*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falihin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

→ 2

## İlham Əliyev Qətər Əmirini və xalqını təbrik etdi

### Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan ilə Qətər arasında güclü İslam həmrəyliyinə əsaslanan ənənəvi dostluq münasibətləri və səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək Qətərdə Futbol üzrə Dünya Çempionatının yüksək səviyyədə təşkil edilməsi və uğurla keçirilməsi münasibətilə də Sizi ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Qətər xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2022-ci il*



## Azərbaycanda hotel infrastrukturu daha da müasirləşir

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "The Ritz-Carlton Baku" hotelinin açılışında iştirak ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 19-da paytaxtda "The Ritz-Carlton Baku" hotelinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım hoteldə yaradılan şəraitlə tanış olublar.**

→ 2

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1501, № 11, maddə 2275; 2019, № 6, maddə 1049; 2020, № 2, maddə 96; 2022, № 8, maddə 871) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.3-cü bəndinin ikinci cümləsində "- Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini - İdarə Heyətinin sədrindən (bundan sonra - İdarə Heyətinin sədri)" sözləri "- İdarə Heyətinin sədrindən" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2022-ci il*

## YAP nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətində səfərdədir



Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətində səfərdədir.

Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu ölkənin hakim siyasi partiyası olan Milli Birlik Partiyasının dəvəti ilə baş tutan səfər çərçivəsində partiyanın nümayəndə heyəti tərəfindən "Boğaz şəhidliyi" ziyarət edilib, 1974-cü ildə həyata keçirilən "Barış" hərəkatında şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad olunub.

→ 4

# Neft, qaz, elektrik enerjisi...

### Azərbaycan Avropanın etibarlı təchizatçılarından birinə çevrilir



Dekabrın 17-də Azərbaycanla Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsinə xidmət edən əlamətdar hadisə baş verdi.

Rumıniyanın paytaxtı Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalandı. Prezident İlham Əliyevin dediyi kimi, bu gün biz Avropaya digər enerji körpüsünü salmağa başlayırıq.

#### Gələn il Azərbaycan Avropaya təxminən 24 milyard kubmetr təbii qaz ixrac edəcək

Azərbaycanın neftlə başlanan enerji siyasəti uğurla davam edir. "Əsrin müqaviləsi" ilə yaradılan möhkəm enerji təməli bu gün ölkəmizin inkişafına, xalqımızın firavanlığına xidmət edir, dövlətimizin qarşısına qoyduğu hədəflərə doğru inamla irəliləməsi üçün böyük imkanlar yaradır. Bakı-Tbilisi-Ceyhan kəməri ilə dünya bazarlarına ixrac olunan neftimiz bir sıra dövlətlərin enerji təhlükəsizliyini təmin edir. Bir neçə il əvvəl "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənilməsi üzrə xarici neft şirkətləri ilə imzalnan yeni saziş göstərdi ki, Azərbaycan hələ bundan sonra da neftlə bağlı müzakirələrdə söz sahibi olan dövlətlərdən biri kimi çıxış edəcək.

Neftlə yanaşı, Azərbaycan təbii qazla da zəngindir. Ötən illərdə Prezident İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi enerji siyasəti nəticəsində Xəzərin təbii qaz ehtiyatlarının emalı və ixracı istiqamətlərində tarixi layihələr uğurla reallaşıb. İndi "Şahdəniz" yatağından hasil olunan təbii qaz "Cənub qaz dəhlizi" vasitəsilə Avropa İttifaqı bazarlarına ixrac olunur. Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimi ilə bağlı plenar iclasda çıxışında Prezident İlham Əliyevin Azərbaycanın qaz ixracı ilə bağlı diqqətə çatdırdığı rəqəmlər ölkəmizin Avropa bazarlarındakı mövqeyinin ildən-ilə yüksəldiyini göstərir. Belə ki, ötən il Azərbaycan Avropa İttifaqı bazarına 8,2 milyard kubmetr təbii qaz ixrac edib.

→ 4

## Haqlı tələb, qətiyyətli mübarizə

### Sərvətlərimizin talanmasına, ekoterrora son qoyulana qədər etiraz davam edəcək

Beynəlxalq aləm bilməlidir ki, Ermənistan 30 illik işğal dövründə də Azərbaycan torpaqlarında ekoloji terror törədib, Qarabağ və Şərqi Zəngəzurda "ölü torpaq" siyasəti həyata keçirərək bu ərazilərdə həyata dair hər nə varsa, hamısını məhv edib.

→ 7

## El bir olsa, dağ oynadar yerindən

### Şuşa-Laçın yolunda keçirilən aksiya milli həmrəyliyimizin təzahürüdür

"Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarı bir daha sübut edir ki, ermənilərin ekosidi davam edir. Aksiya iştirakçıları tələb edirlər ki, sülhməramlı kontingentin müvəqqəti nəzarət zonasındakı ərazilərdə qeyri-qanuni istismar dayandırılmalı, bütün təbii sərvətlərin istismarı Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilməlidir. Fəallar tələblərində israrlıdırlar, onlar mübarizələrini nəticə əldə edənə qədər davam etdirəcəklərini bildirirlər.

→ 7

## İranda neftçilər və həkimlər də etirazçılara qoşuldular

İranda 2 nəfərin təhlükəsizlik məmurlarını öldürməsi ittihamı ilə edam olunmasından sonra hər gün şübhəli ölüm halları qeydə alınır. Dekabrın 17-də əslən azərbaycanlı Ayda Rüstəmi adlı həkimin öldürüldüyü açıqlanıb. Bu həkimin gizli şəkildə etiraz aksiyalarında yaralanan şəxsləri müalicə etdiyi qeyd olunur.

→ 8

## Fransa "dağılır"

### Ölkədə baş verən küçə iğtişaşlarında ölən və yaralananlar var

Fransa Daxili İşlər Nazirliyindən verilən məlumata görə, ümumilikdə ölkə üzrə 227 nəfər saxlanılıb. Onlardan 47 nəfəri Parisdə və paytaxta yaxın yaşayış məntəqələrində saxlanılıb. Həmçinin qeyd olunub ki, aksiyalara toplaşanların qarşısını almaq üçün Paris də daxil olmaqla ölkə üzrə ümumilikdə 14 min nəfər polis cəlb olunub.

→ 10

# Azərbaycanda hotel infrastrukturu daha da müasirləşir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "The Ritz-Carlton Baku" hotelinin açılışında iştirak ediblər







*Əvvəli 1-ci səh.*

Məlumat verildi ki, hündürlüyü 130 metr olan hotel binası 33 mərtəbəlidir. "The Ritz-Carlton Baku" hotelində 190 geniş qonaq otağı, lüks mənzillər, restoranlar, fitnes və biznes mərkəzləri, müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı yaradılıb. Binanın 14 mərtəbəsi hotel otaqları üçün nəzərdə tutulub, 15-ci mərtəbədən başlayaraq yuxarı hissədə isə rezidensiyalar və mənzillər yerləşir.

Qeyd edildi ki, binada korporativ toplantıların və xüsusi günlərlə bağlı tədbirlərin təşkili üçün də ideal şərait yaradılıb. Buradakı "Şuşa" zalı işgüzar görüş və ya qala tədbirlərin keçirilməsi baxımından xüsusi məkandır. Bununla yanaşı, hoteldə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin adlarını daşıyan 12 əlavə iclas otağı yaradılıb. Bunlar "Qarabağ", "Ağdam", "Cəbrayıl", "Qubadlı", "Tərtər", "Xocalı", "Füzuli", "Zəngilan", "Kəlbəcər", "Xankəndi", "Xocavənd" və "Laçın" otaqlarıdır.



Bildirildi ki, binanın daxili dizaynı Azərbaycanın iqliminin, mədəniyyətinin, tarixinin müxtəlifliyini və zənginliyini əks etdirir. Hotelin memarlığında Azərbaycana aid xüsusiyyətlərə - tarixin, incəsənətin, mədəniyyətin və müasir tendensiyaların vəhdətinə xüsusi diqqət yetirilib.

Qeyd edək ki, Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizmin inkişafı başlıca prioritetlərdəndir. Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" bu sahəyə dövlət tərəfindən göstərilən diqqətin əyani təsdiqidir. Dövlət başçısının müəyyənləşdirdiyi uzaqgörən siyasət sayəsində Azərbaycanda müasir hotel infrastrukturunun yaradılmasına hələ uzun illər bundan əvvəl başlanılıb. Pandemiyanın yayıldığı 2020-ci ilədək hər il çox sayda turist ölkəmizə səfər edib, müasir turizm imkanlarından yararlanıb. Artıq dünyada olduğu kimi, ölkəmizdə də postpandemiya dövrü yaşanır. Bu isə öz növbəsində turist axınının artması ilə müşayiət olunur. Bu cür müasir və dünyaca məşhur hotel brendlərinin Azərbaycanda fəaliyyətə başlaması, şübhəsiz ki, postpandemiya dövründə turizmin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir.







# Azərbaycan-Səudiyyə Ərəbistanı:

## *investisiya və energetika sahələrində əlaqələr genişlənir*

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında münasibətlərin yüksək səviyyədə olması qeyd edildi, həm Azərbaycan Prezidenti, həm də Səudiyyə Ərəbistanının Kralı və Vəliəhdinin səyləri nəticəsində əlaqələrimizin daha da möhkəmləndiyi vurğulandı.

Dövlətimizin başçısı bundan əvvəl Xalid bin Əbdüləziz Əl-Falihlə görüşünü məmnunluqla xatırladaraq Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın iclasının uğurla keçəcəyinə əminliyini bildirdi. Əməkdaşlığımızın gündəliyinin daha da genişləndiyini deyən Prezident İlham Əliyev sabah keçiriləcək Azərbaycan-Səudiyyə Ərəbistanı Krallığı biznes-forumunun əhəmiyyətini qeyd etdi.





Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi sahədə əlaqələrin yüksək səviyyədə olmasının ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı əsaslar yaratdığını dedi və biznes sahəsində əməkdaşlığın, o cümlədən investisiya və energetika sahələrində əlaqələrin genişləndirilməsi üçün hər iki tərəfin qarşılıqlı maraq göstərdiyini bildirdi, bu baxımdan Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda külək-elektrik stansiyasının inşası ilə bağlı həyata keçirilən layihəni əməkdaşlığın faydalı nümunəsi kimi qiymətləndirdi. Prezident İlham Əliyev alternativ enerji, xüsusilə külək enerjisinin inkişafı üçün ölkəmizin böyük potensiala malik olduğunu dedi.

Azərbaycan Prezidenti Səudiyyə Ərəbistanı Krallığından nümayəndə heyətinin işğaldan azad edilmiş torpaqlarımıza nəzərdə tutulan səfərini, orada aparılan yenidənqurma işlərinə göstərdikləri marağı və Səudiyyə Ərəbistanı Krallığının biznes dairələrinin ölkəmizə investisiya qoymaq istəklərini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı ilə keçirilən görüşdən şərəf hissi duyduqlarını bildirən Xalid bin Əbdüləziz Əl-Falih əməkdaşlığın genişləndirilməsi ilə bağlı Azərbaycan Prezidentinin verdiyi tapşırıq və tövsiyələrə görə minnətdarlığını bildirdi.

Qonaq İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səud və Vəliəhdi Əlahəzrət Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını və son dövrlərdə ölkəmizin əldə etdiyi böyük uğurlar münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və təbriklərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və Vəliəhdinə çatdırmağı xahiş etdi.

Xalid bin Əbdüləziz Əl-Falih Azərbaycana OPEC+ çərçivəsində əməkdaşlıq və Səudiyyə Ərəbistanının bir sıra beynəlxalq tədbirlərə evsahibliyi etməsində verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Qonaq qeyd etdi ki, ölkəsi Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi məsələsindəki haqlı mövqeyini hər zaman dəstəkləyib.

Xalid bin Əbdüləziz Əl-Falih Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan böyük bərpa və yenidənqurma işlərinin Səudiyyə Ərəbistanı Krallığında hələ də böyük sevinclə izlənildiyini vurğuladı. Səudiyyə Ərəbistanının Azərbaycanın etibarlı tərəfdaşı olduğunu qeyd edən qonaq dedi: "Biz çox şadıq və ümid edirik ki, yenidənqurma və bərpa işləri vasitəsilə sizin sülh mərhələsinə keçidiniz uğurlu olacaq". Qonaq bunun bölgəyə firavanlıq gətirəcəyinə ümidvar olduğunu bildirdi.

Xalid bin Əbdüləziz Əl-Falih ölkələrimiz arasında diplomatik əlaqələrin 30 illiyinin qeyd edilməsinin əhəmiyyətini vurğuladı.

Qonaq Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunması sahəsində Azərbaycanın həyata keçirdiyi layihələrin, bu baxımdan dünən Rumıniyada imzalanan sazişin əhəmiyyətinə toxundu.

Söhbət zamanı iqtisadi sahədə əməkdaşlığın daha da möhkəmləndirilməsinin önəmi vurğulandı, ölkəmizdə bərpaolunan enerji generasiya layihələrində Səudiyyə Ərəbistanı Krallığından olan şirkətlərin iştirakı müzakirə edildi. Qeyd edildi ki, Səudiyyə Ərəbistanı Krallığı bu istiqamətdə, həmçinin kənd təsərrüfatında və digər sahələrdə yeni layihələrə investisiya qoymaqda maraqlıdır.

Görüşdə Səudiyyə Ərəbistanı Krallığının İnkişaf Fondunun və Dövlət İnvestisiya Fondunun ölkəmizdəki layihələri maliyyələşdirməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

# Səudiyyəli nazir Azərbaycanın azad olunmuş ərazilərində görülən işləri təqdir edib

Dekabrın 19-da xarici işlər naziri Ceyhun Bayramov Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falihin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ikitərəfli münasibətlərin inkişafının yüksək səviyyədə olduğu vurğulanaraq, iqtisadi-ticari, investisiya, kənd təsərrüfatı, energetika, alternativ enerji resurslarının inkişafı və digər sahələrdə geniş əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın dost Səudiyyə Ərəbistanı ilə əlaqələrin inkişafına və müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verdiyini diqqətə çatdırıb. Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli tərəfdaşlıqla yanaşı, regional və beynəlxalq formatlarda da faydalı əməkdaşlığın mövcud olduğunu bildirən nazir Ceyhun Bayramov bir sıra təşkilatlar çərçivəsində iki ölkənin bir-birinə qarşılıqlı dəstəyi davam etdirdiyini söyləyib. O, Səudiyyə Ərəbistanının xüsusilə də BMT və İƏT çərçivəsində ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi dəstəyi və ədalətli mövqeyini yüksək qiymətləndirdiyini bildirib.

Nazir iqtisadi əməkdaşlığın prioritet istiqamətləri kimi enerji, kənd təsərrüfatı və turizm sahələrində əməkdaşlıq imkanlarını qeyd edib, həmçinin alternativ enerji, xüsusilə külək enerjisinin inkişafı üçün ölkəmizin böyük potensiala malik olduğunu vurğulayıb. Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın iclasının uğurla keçdiyi və iki ölkə arasında biznes-forumlarının əhəmiyyəti qeyd edilib.

İşğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri və bu istiqamətdə Səudiyyə Ərəbistanı ilə əməkdaşlıq imkanları barədə müzakirə aparılıb.

Səudiyyə Ərəbistanı investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falihin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər zamanı görülən işləri və qazanılan nailiyyətləri təqdir edib. Səudiyyə Ərəbistanında ölkəmizdə energetika, xüsusilə "yaşıl energetika", kənd təsərrüfatı, ekoturizm kimi sahələrə sərmayə yatırmağa maraqlı olan investorların olduğunu qeyd edən nazir Səudiyyə Ərəbistanının bütün sahələrdə Azərbaycan ilə əməkdaşlığa önəm verdiyini diqqətə çatdırıb.

Görüşdə tərəflər həmçinin ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran məsələlər və regional səviyyədə baş verən proseslər ətrafında fikir mübadiləsi aparıblar.

# Səudiyyə İnkişaf Fondu Azərbaycan üçün bir sıra mühüm layihələri maliyyələşdirəcək

İqtisadiyyat naziri Mikayıl Cabbarov Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdül-Əziz Əl-Falih ilə görüşüb.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri Azərbaycan-Səudiyyə Ərəbistanı iqtisadi əlaqələrinin inkişaf etdiyini, biznes dairələri arasında işgüzar münasibətlərin genişləndiyini vurğulayıb. Nazir iqtisadiyyatın prioritet sahələrinə, o cümlədən sənaye, enerji və kənd təsərrüfatı sahələrinə investisiya qoyuluşu, Səudiyyə Ərəbistanı investorlarının işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması prosesində iştirakı imkanlarını qeyd edib.

Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdül-Əziz Əl-Falih ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsi üçün həyata keçirilən tədbirlərin, aparılan müzakirələrin iqtisadi-ticarət münasibətlərinin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib, yeni birgə layihələrin icrası perspektivlərindən danışıb.

Tərəflər iqtisadi-ticarət əlaqələrinin mövcud vəziyyəti və inkişafı, investisiya sahəsində yeni əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

Görüşdə həmçinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Səudiyyə İnkişaf Fondu arasında anlaşma memorandumu imzalanıb. Sənədi iqtisadiyyat naziri Mikayıl Cabbarov və Səudiyyə İnkişaf Fondunun baş icraçı direktoru Sultan Abdurrahman Al-Marshad imzalayıblar. Memorandumda Səudiyyə İnkişaf Fondu tərəfindən ölkəmiz üçün prioritet olan sahələr üzrə inkişaf layihələrinin maliyyələşdirilməsi üzrə əməkdaşlıq məsələləri öz əksini tapıb.

Görüşdən sonra iqtisadiyyat naziri Mikayıl Cabbarov və Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri Xalid bin Əbdül-Əziz Əl-Falih sahibkarlarla görüşüb, biznes-dialoqun genişləndirilməsini müzakirə edib və təklifləri dinləyiblər.

# Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında iqtisadi əməkdaşlığın mövcud vəziyyəti müzakirə olunub

Dekabrın 19-da Bakı Konqres Mərkəzində Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində Əməkdaşlıq üzrə Müştərək Komissiyanın 7-ci iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasdan əvvəl komissiyanın həmsədrləri, Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falihin arasında görüş keçirilib. Samir Şərifov bildirib ki, Azərbaycanla Səudiyyə Ərəbistanı arasında münasibətlər güclü siyasi zəmin əsasında inkişaf edir və iki ölkə arasında əlaqələrin genişləndirilməsi üçün böyük potensial var. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin 30-cu ildönümünün qeyd edildiyini bildirən nazir Müştərək Komissiyanın iclasının iqtisadi sahədə əməkdaşlığın möhkəmləndirilməsi üçün zəmin yaratdığını vurğulayıb.

Eyni zamanda Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa prosesləri, Böyük qayıdış proqramı barədə məlumat verən Samir Şərifov Azərbaycana qarşı işğalçılıq siyasətinə görə Səudiyyə Ərəbistanının Ermənistanla diplomatik əlaqələr qurmamasına görə dost ölkəyə minnətdarlığını bildirib.

Xalid bin Əbdüləziz Əl-Falih ölkələrimiz arasında bir çox sahələrdə uğurlu əməkdaşlığı qeyd edib, xüsusilə iqtisadi, kommersiya və investisiya qoyuluşu sahələrində əməkdaşlığın genişləndirilməsi barədə fikirlərini bölüşüb. Səudiyyə Ərəbistanının Azərbaycanın etibarlı tərəfdaşı olduğunu qeyd edən nazir Səudiyyə Ərəbistanı Krallığının biznes dairələrinin ölkəmizə müxtəlif sahələrdə investisiya qoymaq istəklərini diqqətə çatdırıb.

Sonra Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində Əməkdaşlıq üzrə Müştərək Komissiyanın 7-ci iclası öz işinə başlayıb. Komissiyanın 7-ci iclasının gündəliyinə iki ölkə arasında iqtisadi əməkdaşlığın mövcud vəziyyəti, ticarət və investisiya, enerji, rəqəmsal inkişaf və nəqliyyat, mədəniyyət, elm və təhsil, kənd təsərrüfatı, əmək, məşğulluq və sosial müdafiə, turizm, gənclər və idman, siyasi, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığa dair məsələlər daxil edilib.

Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasındakı əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini və hər iki ölkənin dövlət başçılarının siyasi iradəsinin əməkdaşlığın inkişafında mühüm rolunu vurğulayan Samir Şərifov iqtisadi və digər sahələrdə əlaqələrin daha da inkişafı üçün geniş imkanların olduğunu diqqətə çatdırıb. Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən quruculuq işləri barədə məlumat verən Samir Şərifov Səudiyyə Ərəbistanı Krallığı nümayəndə heyətinin işğaldan azad edilmiş torpaqlarımıza səfərini, orada aparılan yenidənqurma işlərinə göstərdikləri marağı və Səudiyyə Ərəbistanı Krallığının biznes dairələrinin ölkəmizə investisiya qoymaq istəklərini yüksək qiymətləndirib. Səudiyyə Ərəbistanından olan özəl şirkətlərin də Qarabağın bərpa prosesində iştirakının nəzərdən keçirildiyini qeyd edən nazir işğaldan azad edilmiş Azərbaycan torpaqlarında bərpa və yenidənqurma prosesinə Səudiyyə Ərəbistanı İnkişaf Fondu və Səudiyyə İnvestisiya Fondu tərəfindən maliyyə vəsaiti ayrıla biləcəyini diqqətə çatdırıb.

Azərbaycanın maliyyə naziri həmçinin ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti barədə tədbir iştirakçılarına məlumat verib, səudiyyəli investorları sənaye zonalarına və aqroparklara sərmayə yatırmağa dəvət edib. Ticarət əlaqələrinin inkişafı istiqamətində daha böyük potensialın olduğunu diqqətə çatdıran nazir son 1 ildə Azərbaycanla Səudiyyə Ərəbistanı arasında ticarət dövriyyəsinin dəyərinin 60 faizdən çox artdığını deyib. Ölkələrimiz arasında bir çox sahələrdə, xüsusən də enerji sahəsində əməkdaşlıq imkanları olduğunu qeyd edən nazir Səudiyyə Ərəbistanının digər şirkətlərinin də Azərbaycanla əməkdaşlıq etmək imkanlarını diqqətə çatdırıb. Bu il Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə Azərbaycanda 240 MVT-lıq külək enerjisi parkının qurulması ilə bağlı müqavilə imzalandığı qeyd olunub, bu kimi müqavilələrin müxtəlif sahələrdə imzalanmasının mümkünlüyünü vurğulayıb.

Səudiyyə Ərəbistanının Azərbaycanın etibarlı tərəfdaşı olduğunu qeyd edən Xalid bin Əbdüləziz Əl-Falih Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan böyük bərpa və yenidənqurma işlərinin Səudiyyə Ərəbistanı Krallığında böyük sevinclə izlənildiyini vurğulayıb. Nazir qeyd edib ki, Səudiyyə Ərəbistanı Krallığının Azərbaycana gələn nümayəndə heyətinin tərkibində olan investorlar Azərbaycana, o cümlədən azad edilmiş ərazilərə sərmayə yatırmaqda maraqlıdırlar. O, Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında ticarət əlaqələrinin inkişafı və gücləndirilməsi, ticarət dövriyyəsinin artırılması, energetika, investisiya, turizm, təhsil, səhiyyə, sənaye, kənd təsərrüfatı, alternativ və bərpaolunan enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını və Səudiyyə Ərəbistanı şirkətlərinin bu sahələrə investisiya yatırmaq istəklərini ifadə edib. Müzakirələrin yekunu olaraq həmsədrlər Samir Şərifov və Xalid bin Əbdüləziz Əl-Falihin Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində Əməkdaşlıq üzrə Müştərək Komissiyanın 7-ci iclasının protokolunu imzalayıblar. Sənəddə siyasi və təhlükəsizlik məsələləri, ticarət və investisiya, energetika, rəqəmsal inkişaf və nəqliyyat, səhiyyə, mədəniyyət, elm və təhsil, kənd təsərrüfatı və qida təhlükəsizliyi, əmək, məşğulluq və sosial müdafiə, İslam məsələləri, turizm, gənclər və idman və sair sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur. Digər imzalanan sənəd isə İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişaf Agentliyi (KOBİA) ilə Səudiyyə Ərəbistanının Palatalar Federasiyası arasında birgə Biznes Şurasının yaradılması ilə bağlı olub.

Günün ikinci yarısında Müştərək Komissiya öz işini investisiya forumu çərçivəsində davam etdirib, əməkdaşlıq imkanları müzakirə olunub, hər iki ölkənin biznes və investisiya imkanlarına dair təqdimatlar keçirilib.

Azərbaycan-Səudiyyə Ərəbistanı İnvestisiya Forumu çərçivəsində əməkdaşlığa dair 7 sənəd imzalanıb.

# Səudiyyə Ərəbistanının investisiya naziri Zəngilanda olub





Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında Müştərək Komissiyanın həmsədri Xalid ibn Əbdül Əziz Əl-Falih və Azərbaycanın maliyyə naziri, Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında Müştərək Komissiyanın həmsədri Samir Şərifov Zəngilan rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, Zəngilan Beynəlxalq Hava Limanında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülmüş işlər və qarşıda duran planlara dair brifinq keçirilib.

Brifinqdən sonra Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyevin də iştirakı ilə Səudiyyə Ərəbistanı Krallığından gələn 50-dən çox qonaq Zəngilan məscidinin yenidən qurulması, Zəngilan şəhərində həyata keçirilən bərpa və yenidənqurma işləri barədə məlumatlandırılıb. Qonaqlar eyni zamanda "Dost Aqropark" Ağıllı Kənd Təsərrüfatı kompleksinə baxış keçirib və burada yaradılan infrastrukturla yaxından tanış olublar.

Daha sonra səudiyyəli qonaqlar Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsi ilə tanış olub, kənd sakinləri ilə görüşüblər. Həmçinin "Göyərçin" abidə-fəvvarə kompleksinə və meydana baxış keçirilib.

Sonda səfərdə iştirak edən qonaqlar Zəngilan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınıblar.



# Azərbaycan-Səudiyyə Ərəbistanı İnvestisiya Forumunda bir sıra sənədlər imzalanıb

Dekabrın 19-da Bakıda keçirilən Azərbaycan-Səudiyyə Ərəbistanı İnvestisiya Forumunda bir sıra sənədlər imzalanıb.

AZƏRTAC xəbər verir ki, forum çərçivəsində İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişaf Agentliyi (KOBİA) ilə Səudiyyə Ərəbistanının Palatalar Federasiyası arasında birgə Biznes Şurasının yaradılması haqqında saziş imzalanıb. Sənədi Səudiyyə Ərəbistanı-Azərbaycan Biznes Şurasının sədri Əhməd Aldaxil və KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov imzalayıblar.

Səudiyyə Ərəbistanının "FlyNas" şirkəti Azərbaycanın "Alines Tours", "Fovero Tours" və "Khazar Travel" şirkətləri ilə turizm sahəsində yerüstü xidmətlərin asanlaşdırılmasını nəzərdə tutan anlaşma memorandumları imzalayıb. Səudiyyə Ərəbistanının ARCO şirkəti ilə Azərbaycanın Məşğulluq Agentliyi ("HRcell") arasında da anlaşma memorandumu imzalanıb. Memorandumu ARCO şirkətinin sədri Fahad Alzoba və "HRcell" şirkətinin direktoru Ağahüseyn Əliyev imzalayıblar.



Eyni zamanda Səudiyyə Ərəbistanının "Albawani Co" şirkəti ilə Azərbaycanın "North West Construction" MMC arasında iki ölkənin podratçılıq, tikinti və sənaye sahələrində əməkdaşlığı nəzərdə tutan anlaşma memorandumu imzalanıb. Sənədi "Albawani Co" şirkətinin vitse-prezidenti Əbdüləziz Alfraidi və "North West Construction" MMC-nin İdarə Heyətinin sədri Elçin Bədəlov imzalayıblar. Həmçinin Səudiyyə Ərəbistanının "A.Alrabiah Consulting Engineers" şirkəti ilə Azərbaycanın "Technicon Engineers Consulting" şirkəti arasında anlaşma memorandumu imzalanıb və sənəd texniki sahələrdə (məsələn, metro, bina və digər infrastruktur) mühəndislik xidmətlərinin göstərilməsini nəzərdə tutur. Memorandumu "Alrabiah Consulting Engineers" şirkətinin prezidenti Əbdülrəhman Əlrbiah və "Technicon Engineers Consulting" şirkətinin direktoru Qulu Məmmədov imzalayıblar.

Bundan başqa, Səudiyyə Ərəbistanının "Al Suvaiket and Al Busaiyes Lauyers and Legal Consultants Co." şirkəti ilə Azərbaycanın "Black Garden investisiya və korporativ məsləhət" şirkəti arasında Səudiyyə Ərəbistanı və Azərbaycanda investorlara hüquqi xidmətlər və biznes dəstəyi göstərməyi nəzərdə tutan əməkdaşlıq haqqında saziş imzalanıb. Sazişi "Al Suvaiket and Al Busaiyes Lauyers and Legal Consultants Co." şirkətinin təsisçisi və icraedici partnyoru Badir Əl Busayes və "Black Garden investisiya və korporativ məsləhət" şirkəti şirkətinin təsisçisi və icraedici partnyoru Emin Kərimov imzalayıblar.



# Neft, qaz, elektrik enerjisi...

## Azərbaycan Avropanın etibarlı təchizatçılarından birinə çevrilir

Əvvəli 1-ci səh.

Bu il isə bu rəqəm 11,3 milyard kubmetr, növbəti il ən azı 11,6 milyard kubmetr təşkil edəcək. Gələn il Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. 2021-ci ildə bu, 19 milyard kubmetr təşkil edirdi.

Hazırda enerjiyə tarixdə görünməmiş dərəcədə ehtiyac duyan Avropa indiyə qədər həyata keçirilmiş əməkdaşlıq çərçivəsində Azərbaycanın bu sahədə etibarlı tərəfdaş olduğunu dəyərləndirir. Bu ilin iyul ayında Bakıda imzalanan "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" da Azərbaycana inamın və ölkəmizlə edilən tərəfdaşlığa verilən önəmin göstəricisidir. Artıq həmin sənədin icrasına başlanılıb.

### 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə güc yaradılacaq

Dekabrın 17-də isə Azərbaycanla Aİ arasında "yaşıl enerji" sahəsində əməkdaşlığın təməli qoyuldu. Bununla bağlı dialoq bir müddət əvvəl başlayıb. 2022-ci ilin iyulunda imzalanmış Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunda bu məsələ də öz əksini tapıb.

Qeyd edək ki, müasir dünyanın üzləşdiyi çağırışlar və qlobal enerji balansındakı dəyişikliklər dayanıqlı, xüsusən yaşıl və hidrogen enerji güclərinin artırılmasını gündəmə gətirib. İnkişaf etmiş dövlətlərin, Avropanın qarşıya qoyduqları iqlim hədəflərindən biri "yaşıl enerji" keçidini sürətləndirməkdədir.

Azərbaycanda yaşıl və hidrogen üçün əlverişli münbit mənbələr var. İndiyədək neft-qaz sektorunda enerji layihələrini uğurla həyata keçirən ölkəmizdə bu istiqamətdə konkret hədəflər də müəyyən edilib. Bu məsələ "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapıb. 2030-cu ilədək olan dövrdə "yaşıl artım" ölkəsinə çevrilmək sosial-iqtisadi inkişafa dair milli prioritetlərdən biri kimi müəyyənləşdirilib. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı mühüm vəzifələr müəyyən edib.

Buxarestdə plenar iclasda çıxışı zamanı Prezident İlham Əliyev Azərbaycanın bərpaolunan enerji sahəsində 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə güc yaratmağı planlaşdırdığını bildirib: "Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmizin strateji investorlarının biri ilə biz 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Biz 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırırıq".

Ölkəmizdə mövcud olan sabitlik, iqtisadi inkişaf, müasir infrastruktur, əlverişli biznes mühiti və böyük enerji potensialı bərpaolunan enerji növlərinin istehsalı və ixracı sahəsində geniş perspektivlər yaradıb. Bu amillər Azərbaycanın enerji sahəsində böyük təcrübəsi olan şirkətlərlə birlikdə bərpaolunan yeni enerji güclərinin yaradılmasına hədəflənən iri layihələr həyata keçirməsinə yol açıb. Belə ki, bu ilin yanvar ayında ölkəmizdə Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə külək-elektrik stansiyasının təməli qoyulub. Mart ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Bir neçə gün əvvəl isə Energetika Nazirliyi və Avstraliyanın Fortescue Future Industries (FFI) şirkəti arasında Azərbaycanda bərpaolunan enerji layihələri və "yaşıl hidrogen"in potensialının öyrənilməsi və inkişafı üzrə birgə əməkdaşlığa dair çərçivə müqaviləsi imzalanıb. Müqavilə Azərbaycanda bərpaolunan enerji və "yaşıl hidrogen"in istehsalı üzrə ümumi gücü 12 QVt-dək layihələrin araşdırılması və reallaşdırılmasını nəzərdə tutur.

Enerji təhlükəsizliyi hazırda dünyada ən aktual müzakirə mövzularındandır. Ən mühümü odur ki, enerji təhlükəsizliyi dövlətlərin təhlükəsizliyinin əsas elementlərindən birinə çevrilib. Xüsusən Avropa dövlətləri, eləcə də Avropa İttifaqına üzv dövlətlər öz enerji təhlükəsizliklərinə daha həssas yanaşır, bu məqsədlə alternativ enerjiyə ehtiyac duyurlar. Bu sırada bərpaolunan enerji mənbələrinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Bu sahədə nəhəng layihələr reallaşdıran Azərbaycanda nəticə etibarilə "yaşıl enerji"yə keçid uğurla təmin ediləcək. Bununla da neft və təbii qazdan sonra Azərbaycan "yaşıl enerji" sahəsində də qlobal miqyasda söz sahibinə çevriləcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# YAP nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətində səfərdədir

Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətində səfərdədir.

Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu ölkənin hakim siyasi partiyası olan Milli Birlik Partiyasının dəvəti ilə baş tutan səfər çərçivəsində partiyanın nümayəndə heyəti tərəfindən "Boğaz şəhidliyi" ziyarət edilib, 1974-cü ildə həyata keçirilən "Barış" hərəkatında şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad olunub.

Daha sonra YAP, AK Parti və Milli Birlik Partiyası arasında üçtərəfli görüş keçirilib. Milli Birlik Partiyasının Mərkəzi Qərargahında baş tutan görüşdə partiyalararası əməkdaşlığın önəmindən və perspektivlərindən bəhs edilib.





YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, AK Parti Sədrinin birinci müavini, İstanbul millət vəkili Numan Kurtulmuş və Milli Birlik Partiyasının sədri, ŞKTC-nin Baş naziri Ünal Üstel Azərbaycanın tarixi Qələbəsi nəticəsində yaranmış yeni reallıqların fonunda və türk dünyasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasından sonra dost və qardaş xalqların hakim siyasi partiyalarının da yeni çağırışlarla üzləşdiklərini vurğulayıblar. Bu kontekstdə partiyalararası münasibətlərin inkişaf etdirilməsinin və əməkdaşlığın dərinləşdirilməsinin əsas prioritetlərdən biri olduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, bugünkü üçtərəfli görüş yeni formatda işbirliyinin əsaslarının yaradılması baxımından mühüm əhəmiyyətə malikdir. Milli maraqlara əsaslanan səmərəli fəaliyyət həyata keçirən hər üç partiyanın birgə təşəbbüsləri ortaq hədəflərə çatmağa imkan verəcək. Görüş zamanı qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər müzakirə olunub.

Eyni zamanda Şimali Kipr Türk Cümhuriyyətində hakim koalisiyada yer alan Demokrat Partiyası və Yenidən Doğuş Partiyası ziyarət olunub.

Qeyd edək ki, YAP-nin nümayəndə heyətinə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Musa Quliyev, Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli daxildirlər.

# Şimali Kipr Prezidenti YAP-nin nümayəndə heyətini qəbul edib



Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Ersin Tatar bu ölkədə səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

YAP-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AK Parti) rəhbərlik etdiyi nümayəndə heyətinin də iştirakı ilə keçirilən görüşdə türk dünyasında çoxşaxəli münasibətlərin inkişafının əhəmiyyətindən bəhs edilib, güclənən və təsir imkanları genişlənən Türk Dövlətləri Təşkilatının (TDT) bu kontekstdə fəaliyyətinin səmərəli nəticələr verdiyi diqqətə çatdırılıb. TDT-nin bu yaxınlarda Səmərqənddə keçirilən IX Zirvə Görüşündə mühüm qərarların qəbul edildiyi bildirilib, həmçinin Şimali Kipr Türk Cümhuriyyətinin təşkilata müşahidəçi üzv statusunda qəbul olunmasının əhəmiyyətindən söz açılıb. Xüsusi vurğulanıb ki, 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanan Azərbaycan regionda yeni reallıqlar yaradıb. Mövcud reallıqlar fonunda qardaş xalqların çoxşaxəli və məqsədyönlü fəaliyyəti, birgə təşəbbüsləri bölgəyə rifah və inkişaf vəd edir. Bu eyni zamanda türk dünyası üçün parlaq perspektivlər yaradır.

Görüşdə həmçinin türk dövlətlərinin hakim siyasi partiyaları arasında əlaqələrin sıxlaşdırılmasının vacib olduğu, əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların mövcudluğu vurğulanıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Musa Quliyev, Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli daxildirlər.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Energetika naziri Pərviz Şahbazov dekabrın 19-da Zaqatala rayonundakı Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirliyin müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların fərdi yaşayış evinin elektrik enerjisi təchizatı, smeta, texniki şərtin verilməsi, elektrik xətlərinin istismar vəziyyəti və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün lazımi tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydə alınıb.

Qəbulda Zaqatala, Balakən və Qax rayonlarından olan vətəndaşlar iştirak ediblər.

# *Ayxan HACIZADƏ:* "Litva XİN-in qərəzli və birtərəfli yanaşması narahatlıq doğurur"

Azərbaycanın uzun illər geniş tərəfdaşlıq münasibətlərinə malik olduğu və dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn suverenlik və ərazi bütövlüyü prinsiplərinə xüsusi önəm verən və daim bu prinsiplərdən çıxış edən Pribaltika ölkəsi olan Litvanın belə bir bəyanatla çıxış etməsi təəccüb və təəssüf doğurur.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə yerli media nümayəndələrinin sualını cavablandırarkən deyib. O bildirib ki, bu bəyanat eyni zamanda Litva Respublikasının Prezidenti Gitanas Nausedanın cari ilin may ayında Azərbaycana səfəri zamanı aparılmış müxtəlif istiqamətli müzakirələr kontekstində anlaşılmazlıq yaradır.

Ayxan Hacızadə deyib: "Litva tərəfinə xatırladırıq ki, Azərbaycan ərazisində "Dağlıq Qarabağ" deyilən ərazi vahidi mövcud deyil. Litva artıq "Pribaltika" ölkəsi adlandırılmadığı kimi, Azərbaycanın Qarabağ İqtisadi rayonunun Sovet İttifaqı zamanı formalaşdırılmış keçmiş adlarla adlandırılması qəbuledilməzdir.

Litva Xarici İşlər Nazirliyinin qeyri-qanuni iqtisadi fəaliyyətə, təbii sərvətlərin talanmasına, Laçın yolundan həm hərbi təxribatlar, minaların Azərbaycan ərazisinə ötürülməsi, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə olunmasına etiraz bildirməsi əvəzinə məsələyə qərəzli və birtərəfli yanaşması narahatlıq doğurur.

Azərbaycanın vətəndaş cəmiyyəti təsisatlarının dinc və haqlı etirazına hörmətlə yanaşılmalıdır. Bölgədə humanitar vəziyyət barədə iddialara gəldikdə bir daha bəyan edirik ki, Azərbaycan tərəfi ərazilərimizdə yaşayan erməni sakinlərin humanitar ehtiyaclarını qarşılamağa daim hazırdır və bu məsələdə üçüncü tərəfin müdaxiləsinə ehtiyac yoxdur".

# *ANAMA:* "Ötən həftə 297 partlamamış hərbi sursat zərərsizləşdirilib"




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatlara dair həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, dekabrın 12-dən 17-dək Tərtər, Ağdam, Laçın, Xocavənd, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 59, tank əleyhinə 35 mina və 297 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 579 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# "Paşa Holdinq" şəhid övladları üçün sosial dəstək proqramına start verib







Dekabrın 19-da "Paşa Holdinq" 44 günlük Vətən müharibəsi və 2022-ci ilin sentyabrındakı erməni təxribatları zamanı şəhid olan qəhrəmanların 18 yaşadək övladları üçün sosial dəstək proqramına start verib.

AZƏRTAC-in məlumatına görə, bununla bağlı tədbirdə çıxış edən "Paşa Holdinq"in baş icraçı direktorunun müavini Şahin Məmmədov bildirib ki, bu mövzu qurumun korporativ məsuliyyət strategiyasında geniş yer alır və daim diqqət mərkəzindədir. "Vətən əmanətlərin keşiyindədir" proqramına əsasən, 2023-cü il ərzində 18 yaşadək olan şəhid övladları üçün təhsil, səhiyyə və digər sahələr üzrə sosial layihələr həyata keçiriləcək.

Belə ki, proqram holdinqin iki törəmə şirkəti tərəfindən icra olunacaq. Bunlar "Paşa Sığorta" və "Bravo" supermarketlər şəbəkəsidir. Proqram çərçivəsində 44 günlük Vətən müharibəsi və ondan sonra törədilən təxribatlar zamanı şəhid olan qəhrəmanların 18 yaşınadək olan 1700 şəhid övladı tibbi sığorta ilə təmin ediləcək.

Həmin uşaqların tibbi sığorta xərcləri "Paşa Sığorta" tərəfindən qarşılanacaq. Həmçinin gələn il müxtəlif bayramlar ərəfəsində şəhid övladlarına "Bravo" supermarketlər şəbəkəsi tərəfindən sovqatlar çatdırılacaq. İlk belə sovqatlar dekabrın 22-dən etibarən "Regional İnkişaf" İctimai Birliyinin könüllülərinin də iştirakı ilə ailələrə paylanılmağa başlanılacaq.

Bundan əlavə, "Paşa Holdinq" 2023-2024-cü tədris ili ərəfəsində şəhid övladlarını məktəb ləvazimatları ilə təmin edəcək.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Səbinə Əliyeva bildirib ki, hazırda qazilər, şəhid ailələri, veteranlar və müharibədən əziyyət çəkən şəxslərin, xüsusilə də əhalinin həssas qrupuna aid olan uşaqların sosial hüquqi müdafiəsi daim dövlətin diqqət mərkəzindədir.

"Ölkəmizin aparıcı şirkətlərindən biri olan "Paşa Holdinq"ə xalqımız üçün olduqca böyük əhəmiyyət kəsb edən növbəti uğurlu sosial proqrama imza atdığına görə təşəkkür edirəm. Ombudsmanlıq olaraq belə nəcib təşəbbüs və layihələri olduqca yüksək qiymətləndiririk. Hesab edirəm ki, şəhidlərin övladlarının və xüsusi qayğıya ehtiyacı olan digər uşaqların inkişafı baxımından mühüm rola malik belə vacib təşəbbüslərə digər şirkətlər də qoşulmalı, bu ənənə ölkənin bütün regionlarını əhatə etməlidir".

Tədbir zamanı "Paşa Holdinq"in şəhid ailələri və qazilərə həsr olunan digər layihələri barədə də təqdimatlar edilib.

Qeyd edək ki, 2020-ci ildən etibarən "Paşa Holdinq"in əsas məqsədləri sırasında vacib yerlərdən birini Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası və yenidən qurulmasına, bu ərazilərdə dayanıqlı iqtisadiyyatın formalaşmasına töhfə vermək, Vətən müharibəsinin şəhid və qazi ailələrinə dəstək göstərmək təşkil edir. Bunu nəzərə alaraq şirkət cari proqramların uzunmüddətli davam etməsini planlaşdırır. Tələbatdan asılı olaraq növbəti illərdə proqramda müvafiq dəyişikliklərin edilməsi də mümkündür.

# Böyük qayıdışın yol xəritəsi

## Qarabağ və Şərqi Zəngəzurun inkişafı möhkəm təməllər üzərində qurulur



44 günlük Vətən müharibəsindən sonra qalib ölkə kimi Azərbaycanın qarşısına qoyduğu əsas prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaq, bir sözlə, Qarabağ və Şərqi Zəngəzuru yenidən cənnətməkana çevirməkdir.

Artıq iki ildən çoxdur ki, dövlət öz iqtisadi qüdrəti hesabına işğaldan azad edilən ərazilərimizdə möhtəşəm layihələr reallaşdırır. Yeni yolların, körpülərin, tunellərin, sosial-iqtisadi obyektlərin, yaşayış yerləri və müxtəlif digər infrastrukturların inşası sürətlə davam etdirilir.

Şanlı zəfərimizin yaratdığı reallıqlardan biri də işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilməsi prosesində yeni iqtisadi rayonların yaradılması zərurəti oldu. Yəni işğaldan azad edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirdi.

Məhz buna görə də Prezident İlham Əliyevin 2021-ci il iyulun 7-də imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmana əsasən iki yeni rayon - Qarabağ (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) iqtisadi rayonları yaradıldı.

Əlavə edək ki, buna qədər Azərbaycanda 10 iqtisadi rayon (Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Lənkəran, Naxçıvan) mövcud idi.

Fərmanla əlavə daha iki rayon da yaradıldı - Bakı şəhəri Abşerondan ayrıldı və Mil-Muğan rayonu formalaşdı. Beləliklə də iqtisadi rayonların sayı 14-ə çatdırıldı.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan layihələrə nəzər yetirsək görərik ki, bəlkə də, böyük dövlətlərin bir neçə il ərzində görə bilmədikləri işləri Azərbaycan cəmi 2 ildə reallaşdırıb. Hava limanları, yaşayış məntəqələri, avtomobil və dəmir yolları, körpülər, tunellər, su anbarları, elektrik enerjisi stansiyaları, içməli su xətləri və sosial-iqtisadi infrastrukturların yaradılması dünyanın diqqətini cəlb edir.

Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

Elə bu məqsədlə də Prezident İlham Əliyev noyabrın 16-da "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

Sənəddə göstərilir ki, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunub. Bu milli prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. Dövlət proqramında işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, proqramın prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Sənədin hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb.

Dövlət proqramında nəzərdə tutulan tədbirlər hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcək. Sənədin əsas məqsədləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışla bağlı təsbit olunmuş 2 məqsəd: əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası çərçivəsində müəyyən edilib. Bu məqsədlər ilk növbədə ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq, sosial xidmətlərin əhatə dairəsini genişləndirmək və əlçatanlığı təmin etməkdir.

Qoyulan hədəflər nəzərə alınmaqla dövlət proqramının icrası üzrə monitorinqlər keçiriləcək. Monitorinq məqsədilə tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələr müəyyən edilir. İlkin nəticələr dövlət proqramının icra olunduğu dövr ərzində hər ili, aralıq nəticələr illik əsasda olmaqla 2023-cü, 2024-cü və 2025-ci illəri, yekun nəticələr isə 2026-cı ili əhatə edəcək. Sözügedən dövlət proqramı üzrə monitorinq və qiymətləndirmə Prezidentin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi" qaydasına əsasən həyata keçiriləcək.

Bu gün mühüm hədəflərdən biri işğaldan azad edilmiş torpaqlarımızda bərpa - quruculuq işlərinin sistemli şəkildə reallaşması və yüksəliş dövrünün başlanmasıdır. Burada məqsəd Böyük qayıdışa uyğun proqramların hazırlanması və icrasıdır. Bu hədəf üzrə işlər tamamilə yeni reallıqlar əsasında Azərbaycanın inkişafında xüsusi mərhələyə qədəm qoymaq deməkdir.

Çünki 30 ilə yaxın müddətdə işğal altında qalmış ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, eyni zamanda beynəlxalq və regional əhəmiyyətli nəqliyyat-logistika dəhlizlərinin fəaliyyətə başlaması həm Azərbaycan iqtisadiyyatına əlavə güc qatacaq, həm də bölgədə qarşılıqlı faydalı əməkdaşlıq mühitinin formalaşmasını şərtləndirəcək.

Azərbaycan dövlətinin əsas hədəflərindən biri də işğaldan azad olunmuş ərazilərimizdə əhalinin məskunlaşma səviyyəsini işğala qədərki səviyyəyə çatdırmaqdır. Əlbəttə ki, buna nail olmaq üçün bütün imkanlar, o cümlədən iqtisadi potensial və insan resursları mövcuddur.

Tarixi zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərin malik olduğu potensialın ölkəmizin ümumi iqtisadiyyatına yönəldilməsi dayanıqlı inkişafa böyük təkan verəcək. Bu çərçivədə bölgədə təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Azərbaycanın region iqtisadiyyatının ümumi mənzərəsinin müəyyənləşdirilməsində rolunu daha da gücləndirəcək.

Bir sözlə, dövlət başçısının düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrası həm Azərbaycana böyük iqtisadi və siyasi dividendlər qazandıracaq, həm də dünya bir daha şahid olacaq ki, İlham Əliyev hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli liderdir. Bu günün reallıqları isə bir daha göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Bu il şəhid ailələrinə və müharibə iştirakçılarına 1800-ə yaxın yollayış verilib

**Dekabrın 19-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) İcraiyyə Komitəsinin iclası keçirilib.**



AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə əvvəlcə vətənimizin müdafiəsi uğrunda şəhid olmuş oğul və qızlarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Sonra AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev iclasın gündəliyini təqdim edib.

Qeyd olunub ki, "İlin peşəkar gənci" nominasiyasında AHİK-in üzv təşkilatlarının təqdimatı əsasında 131-i qadın olmaqla, 370 nəfər "İlin peşəkar gənci" fəxri adına layiq görülüb. 2022-ci il ərzində də xüsusi nailiyyətlər əldə etmiş gənclər mükafatlandırılacaq.

2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar AHİK-in tədbirlər planına ağacəkmə aksiyası, idman yarışları, sərgilərin təşkili, konfransların keçirilməsi, aztəminatlı ailələrə yardımların göstərilməsi və s. tədbirlər nəzərdə tutulub.

Eyni zamanda vurğulanıb ki, şəhid ailələri, müharibə iştirakçıları və veteranları, müharibə ilə əlaqədar əlillik təyin edilən şəxslərin sosial problemlərinin həlli istiqamətində müəyyən işlər görülüb. Sosial tərəfdaşlarla imzalanan Baş Kollektiv Sazişdə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin əmək bazarına inteqrasiyasının dəstəklənməsi istiqamətində müvafiq işlər davam etdiriləcək. Həmçinin bəzi üzv təşkilatlar ilə işəgötürən arasında bağlanan tarif sazişlərində də bu qəbildən olan iştirakçılar üçün əlavə güzəştlər tətbiq edildiyi diqqətə çatdırılıb. Bildirilib ki, metropoliten işçilərinin həmkarlar ittifaqı arasında 2021-2023-cü illər üçün bağlanmış kollektiv müqaviləyə əsasən, "Bakı Metropoliteni" QSC ilə orden, medal və fəxri adlarla təltif olunmuş işçilərə respublika üzrə minimum əməkhaqqının 50 faiz miqdarında aylıq ödəniş verilməsini öhdəsinə götürərək təmin edib.

Sahə həmkarlar ittifaqları tərəfindən 2022-ci ilin ötən dövrü ərzində şəhid ailə üzvlərinə və müharibə iştirakçılarına 1790 yollayış verilib. Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar hərbi vəzifələrini yerinə yetirərkən və ya həqiqi hərbi xidmət nəticəsində əlil olmuş 400 nəfərin 4 ay ərzində sanatoriya-kurort müəssisələrində müalicəsi və istirahəti təşkili edilib.

Əhalinin həssas qruplarının özünüməşğulluğunun təşkilinə kömək göstərilməsi sahəsində əməkdaşlığa dair memoranduma əsasən, AHİK ƏƏSMN-ə və Naxçıvan Muxtar Respublikasının ƏƏSMN-ə ümumilikdə 450 min manat vəsait köçürüb.

İcraiyyə Komitəsində gündəlikdə yer alan digər məsələlərlə bağlı da müzakirələr aparılıb, müvafiq qərarlar qəbul edilib.

Sonda AHİK sədri Səttar Möhbalıyev əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası, sağlam və təhlükəsiz iş şəraitinin yaradılması, bədbəxt hadisələrin, istehsalat zədələrinin, peşə xəstəliklərinin minimuma endirilməsi, əməyin mühafizəsi üzrə qayda və normalara əməl edilməsi məqsədilə mütəmadi maarifləndirmə tədbirlərinin həyata keçirilməsini tövsiyə edib.

# "Təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunlara yeni maddələr əlavə olunacaq

Dekabrın 19-da Milli Məclisin Elm və təhsil komitəsinin videokonfrans formatında iclası keçirilib. Komitə sədri Bəxtiyar Əliyev iclasın gündəliyinə iki məsələnin daxil olduğunu deyib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri əvvəlcə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. Bildirib ki, layihəyə komitə iclaslarında və plenar iclaslarda birinci və ikinci oxunuşlarda baxılıb. Hər hansı əlavə və dəyişiklik təklif olunmayıb.

Sənəd Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"na əsasən hazırlanıb.

Qanun layihəsi üçüncü oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Sonra Bəxtiyar Əliyev "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O diqqətə çatdırıb ki, sənəd 2019-cu il 22 oktyabr tarixdə qəbul edilmiş "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" qanunun icrası ilə əlaqədar hazırlanıb. Buna uyğun olaraq layihədə adları çəkilən qanunlarda müvafiq dəyişikliklər təklif olunur.

Bildirilib ki, qeyd edilənlərlə bağlı "Təhsil haqqında"və "Ümumi təhsil haqqında" qanunlara eyni məzmunlu yeni maddələrin əlavə olunması nəzərdə tutulub. Əlavələrə əsasən ümumi təhsil müəssisələri tərəfindən yetkinlik yaşına çatmayanların öz inkişaf səviyyələrinə uyğun cinsi istismar və cinsi zorakılıq təhlükələri, habelə özünümüdafiə vasitələri barədə məlumat almaları təmin edilir. Bu zaman onlara cinsi tərbiyəyə dair ümumi məlumat verilir, təhlükəli vəziyyətlərə, xüsusilə yeni informasiya və kommunikasiya texnologiyalarından istifadədən irəli gələn hallara xüsusi diqqət yetirilir. Belə məlumatların təqdim edilməsinə yetkinlik yaşına çatmayanların valideynləri və ya digər qanuni nümayəndələri cəlb edilə bilərlər. Habelə uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum edilmiş şəxslər pedaqoji fəaliyyətlə məşğul ola bilməzlər.

Komitə üzvü Ceyhun Məmmədov çıxış edərək təklif olunan dəyişikliklərin məqsədəmüvafiq olduğunu söyləyib. O, bu sahədə təbliğat və maarifləndirmə tədbirlərinin görülməsinin vacibliyinin qeyd edib.

Qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Onlayn iclasda komitənin sədr müavini Musa Qasımlı, üzvləri Ülviyyə Ağayeva, Tamam Cəfərova, Etibar Əliyev, Kamilə Əliyeva, Rafael Hüseynov, Anar İsgəndərov, Pərvin Kərimzadə, Eldar Quliyev, Müşfiq Məmmədli, Aqiyə Naxçıvanlı, Fatma Yıldırım, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev iştirak ediblər.

***"Azərbaycan"***

# İKT sahəsinin inkişaf etdirilməsi ilə bağlı qanunvericiliyə dəyişikliklər ediləcək

Dekabrın 19-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclası açan komitə sədri Tahir Mirkişili bildirib ki, gündəliyə 14 məsələ daxil edilib və birinci 4 məsələ birinci oxunuşda, qalan 10 məsələ isə ikinci və üçüncü oxunuşlarda olan qanun layihələridir.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə iclasda 5-14-cü məsələlər - təhsil müəssisələri tərəfindən idxal olunan avadanlıqların və cihazların 2 il müddətinə gömrük rüsumundan azad edilməsini özündə ehtiva edən "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), valyuta əməliyyatlarına nəzarəti artırmaq üçün hazırlanmış "Valyuta tənzimi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Banklar haqqında", "Poçt haqqında", "Fərdi məlumatlar haqqında" qanunlarda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), işğaldan azad olunmuş ərazilərin rezidentlərinin 10 il müddətinə gömrük rüsumlarından azad edilməsini nəzərdə tutan "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Ələt Azad İqtisadi Zonasının miqrasiya sahəsində münasibətlərini tənzimləyən Miqrasiya Məcəlləsində və "Ələt Azad İqtisadi Zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), terrorçuluğun və kütləvi qırğın silahlarının yayılmasına qarşı hazırlanmış "Hədəfli maliyyə sanksiyaları haqqında" (ikinci oxunuş) və Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Qida təhlükəsizliyi haqqında" qanunun icrası ilə əlaqədar hazırlanmış Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və gömrük dəyərinin müəyyən edilməsi üçün yeni yanaşmaları özündə ehtiva edən Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələridir.

Komitə sədri bildirib ki, bu qanun layihələri ilə bağlı əvvəlki oxunuşlarda kifayət qədər məlumat verilib və sənədlərlə bağlı heç bir dəyişiklik və ya irad bildirilməyib.

Deputat Vahid Əhmədovun 10-cu məsələ olan "Hədəfli maliyyə sanksiyaları haqqında" qanun layihəsi barədə qaldırdığı məsələyə komitə sədri Tahir Mirkişili və Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov aydınlıq gətirəndən sonra qanun layihələri baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra iclasda gündəliyin qalan 4 qanun layihəsinə - birinci oxunuşda müzakirəyə çıxarılan Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə, Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi barədə, "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinə baxılıb.

Qanun layihələri barədə məlumat verən Tahir Mirkişili qeyd edib ki, sənədlər ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və yüksək texnologiyalar sahəsinin inkişaf etdirilməsinə, keyfiyyətinin artırılmasının, innovativliyin, investisiya cəlbediciliyinin və istehlakçıların maraqlarının qorunmasının təmin edilməsinə xidmət edir.

İKT-nin iqtisadiyyatın inkişafına təsirlərindən söz açan komitə sədri Azərbaycanda da bu sahəyə göstərilən yüksək dövlət qayğısından danışıb. O, qanun layihələrində İKT sahəsinin inkişaf etdirilməsi, bu sahədə hüquqi və fiziki şəxslərin fəaliyyətlərinin dəstəklənməsi, ölkədə rəqəmsal inkişafın təşviq edilməsi, xarici investisiyaların, yüksəkixtisaslı mütəxəssislərin və kadrların cəlb edilməsi üçün nəzərdə tutulan güzəştlər barədə ümumi məlumat verib.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Fərid Əhmədov qanun layihələrinin ölkə Prezidentinin "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanından irəli gələn məsələlərə uyğun olaraq hazırlandığını diqqətə çatdırıb.

Azərbaycanda İKT sahəsində qlobal sahədə rəqabətə dözümlü məhsulların hazırlanması üçün görülən işlərdən, kadr hazırlığı və təminatı məsələlərindən danışan nazir müavini deyib ki, qanun layihələrində təklif olunan dəyişikliklərin məqsədi Azərbaycanda İKT sahəsinə həm daxili, həm də xarici sərmayələrin cəlb edilməsi, rəqabətədözümlü məhsulların yaradılması və ixrac edilməsi kimi hədəflərdir.

Dövlət Vergi Xidmətinin Vergi Siyasəti Baş İdarəsinin rəisi Nicat İmanov İKT sahəsinin əlavə dəyər yaradılması baxımından əhəmiyyətini vurğulayaraq, təklif olunan dəyişikliklərdə texnologiyalar parkından kənarda fəaliyyət göstərən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən vergi ödəyicilərinin texnologiyalar parkının rezidenti statusunu əldə edərək yararlanacağı vergi güzəştləri, maliyyə təşviq alətləri barədə məlumat verib.

Qanun layihələrinin müzakirələrində parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, komitənin üzvləri Vahid Əhmədov, Ziyad Səmədzadə, Vüqar Bayramov, Mahir Abbaszadə, Məşhur Məmmədov, Məzahir Əfəndiyev, Rüfət Quliyev, Aydın Hüseynov çıxış edərək rəy və suallarını səsləndiriblər.

Nazir müavini Fərid Əhmədov, Dövlət Vergi Xidmətinin baş idarə rəisi Nicat İmanov, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri Elmin Məmmədov, Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müşaviri Rəşad Həsənov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər, onların suallarını cavablandırıblar.

Müzakirələrin sonunda qanun layihələri səsə qoyularaq birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Türk birliyinə tarixi xidmət

**Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin Türkmənbaşı şəhərində keçirilmiş zirvə görüşü son günlərin ən mühüm siyasi yeniliklərindən biri kimi maraqlı məqamları ilə tarixə düşdü. Bu görüş, ilk növbədə, türk dövlətlərinin birliyi ilə bağlı niyyətlərin addım-addım gerçəkləşməsi, qarşıya qoyulan hədəflərin yaxınlaşması baxımından böyük əhəmiyyət daşıyır.**




2010-cu il sentyabrın 16-da Türkdilli ölkələrin dövlət başçılarının İstanbulda keçirilmiş X Zirvə görüşündən bəri bu ölkələr arasında əməkdaşlığı təmin edən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adı altında fəaliyyət göstərən qurum ölkə rəhbərlərinin müvafiq qərarına əsasən, hazırda Türk Dövlətləri Təşkilatı adı ilə çoxşaxəli işini davam etdirir. Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan Türk Dövlətləri Təşkilatına üzv ölkələrdir. Macarıstan və Türkmənistan isə bu qurumda müşahidəçi statusunda təmsil olunur. Son illər xüsusilə Azərbaycan və Türkiyənin ardıcıl səyləri ilə Türk Dövlətləri Təşkilatının fəaliyyəti daha da güclənməkdədir. Təşkilatın tədbirləri, təşəbbüslər irəli sürməsi və bu təşəbbüslərin icrası istiqamətində işlər intensivləşib. Qlobal proseslərə təsir imkanları genişlənib. Türk Dövlətləri Təşkilatının fəaliyyəti heç bir ölkənin maraqlarına qarşı yönəlməyib. Əsas məqsədi əməkdaşlıqdan, qarşılıqlı faydaların əldə edilməsindən ibarət olan bu qurum eyni dilə, oxşar mədəni mühitə malik xalqların birliyinin gücləndirilməsi, türk ölkələri arasında siyasi və ticari-iqtisadi əlaqələrin möhkəmləndirilməsi üçün yeni regional birlik formatının müəyyənləşdirilməsi ilə bağlı xoş niyyətləri ortaya qoyur.

Dövlət dilləri türk dillərinin oğuz qrupuna daxil olan Azərbaycan, Türkiyə və Türkmənistan etnik, dini-mənəvi və digər ortaq dəyərlər baxımından bu birliyin formalaşmasında mühüm rol oynayır. Son onilliklərdə Azərbaycan və Türkiyə bir millət, iki dövlət olmağın bütün dünya üçün ən parlaq nümunəsini yaradır. Ötən il ölkələrimiz arasında imzalanmış tarixi Şuşa Bəyannaməsi ilə Azərbaycan-Türkiyə münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Başqa türkdilli ölkələr arasında da inteqrasiyanın güclənməsi, münasibətlərin inkişaf edərək ən yüksək mərtəbəyə yüksəlməsi çox arzuediləndir. Azərbaycan bununla bağlı xoş niyyətlərini ortaya qoyur, türk dövlətləri arasında münasibətlərin inkişafı üçün bütün faydalı təşəbbüsləri dəstəkləyir, bir çox hallarda özü təşəbbüsü üzərinə götürür, qarşılıqlı əməkdaşlıqlara açıq olduğunu nümayiş etdirir. Bu baxımdan, Azərbaycan başqa türkdilli ölkələr, o cümlədən Türkmənistanla da sıx əməkdaşlıq əlaqələrinə malikdir. Qeyd edək ki, dekabrın 14-də Türkmənistana gerçəkləşən səfər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkəyə son bir ildə ikinci səfəridir. 2017-ci ildə ölkəmizlə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb.

Azərbaycan, Türkiyə və Türkmənistan beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ATƏT və digər təsisatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərir və əməkdaşlıq edir. Azərbaycan Prezidentinin Zirvə görüşündəki çıxışında da bəyan etdiyi kimi, tarixi bağlar üzərində qurulmuş münasibətlərimiz ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar yaradır. Rəsmi statistik məlumatlara görə, təkcə 2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi 45 faiz artaraq 5 milyard dollara çatıb. Azərbaycandan Türkiyə iqtisadiyyatına 20 milyard dollara yaxın, Türkiyədən isə Azərbaycan iqtisadiyyatına 14 milyard dollara yaxın sərmayə yatırılıb. Eyni inkişaf tempi Türkmənistanla ticarət dövriyyəsində də özünü göstərir. Belə ki, son bir ildə Azərbaycanla Türkmənistan arasında ticarət dövriyyəsi 5 dəfə artaraq rekord həddə çatıb.

Məlum olduğu kimi, tarixin bütün dövrlərində, nəqliyyat, logistika, daşımaçılıq dünya iqtisadiyyatının qan damarı rolunu oynayıb. Milli iqtisadiyyatların getdikcə bir-birindən asılı olduğu qloballaşan dünyamızda isə nəqliyyat-logistika layihələri həyati vacib məsələlərdir. Bu baxımdan, Azərbaycan, Türkiyə və Türkmənistan son illər nəqliyyat-logistika sahəsində çox böyük nailiyyətlər qazanıb. Ölkələrimiz tərəfindən bir çox qlobal əhəmiyyətli kommunikasiya layihələri icra edilərək xəyallardan reallığa çevrilib. Müasir standartlara, qlobal iqtisadiyyatın tələblərinə cavab verən infrastruktur qurulub. Bütün bu layihələr, öz növbəsində nəqliyyat bağlantıları sahəsində əməkdaşlıq üçün geniş imkanlar açır.

"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal iştirakçısı olan Azərbaycan öz ərazisində dəmir yolu, avtomobil nəqliyyatı və hava nəqliyyatı ilə bağlı olan bütün əsas layihələri qısa müddətdə uğurla yerinə yetirib və nəticədə bütün dünya üçün xüsusi önəm daşıyan tranzit ölkəsinə çevrilib. 2022-ci ilin ilk 10 ayında Azərbaycan ərazisindən keçən ümumi tranzit daşımalarının həcminin ötən ilin müvafiq dövrü ilə müqayisədə 80 faizdən çox artması da ölkəmizin qlobal iqtisadiyyatda getdikcə artan rolunu, nəqliyyat-kommunikasiya layihələrinə qoyulan sərmayələrin, bu istiqamətdə atılmış addımların önəmini göstərir.

Ölkələr və xalqlar arasında ortaq tarixi köklər, mənəvi dəyərlər hər nə qədər mühüm birləşdirici amillər olsa da, etiraf edək ki, iqtisadi əlaqələr olmayanda, müasir dövrdə qarşılıqlı faydalar yaranmayanda bütün bu tarixi bağlılıqlar da elə tarix səviyyəsində qalır. Ən yaxşı halda müəyyən mədəni tədbirlərin predmeti kimi xatırlanır. Amma müasir dövrdə bu bağlılıqlar həm də güclü iqtisadi əlaqələrə əsaslananda, birgə layihələrlə möhkəmlənəndə daha da güclənir və ölkələr, xalqlar arasındakı inama, gələcəyə baxışa, birgə niyyətlərə xüsusi dəyər qatır. Bu mənada, Azərbaycanın və Türkiyənin iştirakı ilə həyata keçirilmiş qlobal layihələr, başqa türkdilli ölkələrin də hansısa şəkildə həmin layihələrə cəlb olunması və yaxın gələcəkdə daha da geniş əməkdaşlıqların qurulması perspektivi türk dünyasının birliyinə ən böyük xidmətdir.

Torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş tarixi zəfərimizdən sonra bu sahədə imkanlar daha da genişlənir. Azərbaycan regionda marağı olan hər kəs üçün əməkdaşlıq qapısı açır. Bu əməkdaşlıq imkanlarından faydalanan ölkələrin əhəmiyyətli bir hissəsi də məhz türk dövlətləri olacaq. Xüsusilə, Zəngəzur dəhlizinin açılması türk dövlətləri arasında tarixi bağlantını bərpa edəcək. Təsadüfi deyil ki, Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev bu məqama xüsusi toxundu, hazırda Zəngəzur dəhlizinin açılması ilə bağlı fəal şəkildə aparılan işlər haqqında məlumat verdi. Dövlət rəhbərimiz bəyan etdi ki, Zəngəzur dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsində aparılan işlərin dəmir yolu xətti üzrə 40 faizi, avtomobil yolu üzrə 70 faizi icra olunub. Bütün işlər 2024-cü ildə tamamlanacaq və nəticədə yeni nəqliyyat dəhlizi yaranacaq.

Getdikcə genişlənməkdə olan potensialdan birgə faydalanmaq, xüsusilə Xəzər qonşumuz olan türk ölkələrinin Azərbaycanın yaratdığı qlobal nəqliyyat infrastrukturundan məqsədyönlü şəkildə istifadəsinə şərait yaratmaq üçün dövlətimiz mövcud infrastruktur layihələrini daha da inkişaf etdirir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı hazırda il ərzində 15 milyon ton yükaşırma qabiliyyətinə malikdir və bu həcm 25 milyon tona çatdırılacaq. Keçən il Xəzər dənizi sahilində Ələt Azad İqtisadi Zonasının təməli qoyulub və artıq orada ilk rezidentlər yerləşib. Azərbaycan Prezidenti Türkiyə və Türkmənistan şirkətlərini də bu zonanın imkanlarından faydalanmağa dəvət edib.

Dövlətimiz əlavə sərmayələrlə Bakı-Tbilisi-Qars dəmir yolunun ötürücülük qabiliyyətini də artırmaqdadır. Eyni zamanda ölkəmizin malik olduğu Bakı Gəmiqayırma Zavodu, böyük mülki hava yük donanması, son illər azad edilmiş yurdlarımızda tikilən hava limanları hesabına sayı daha da artaraq 8-ə çatan beynəlxalq hava limanları bu sahədə imkanları genişləndirir. Bütün bunlar iqtisadi inkişafa təkan verdiyi qədər ortaq layihələr ətrafında bir araya gələn, bir-birinə inanan, güvənən türk dövlətlərini daha da yaxınlaşdırır, bu birliyi sarsılmaz edir.

Dünyanın yeni çağırışlarla, təhdidlərlə üzləşdiyi müasir dövrümüzdə türk dövlətlərinin belə qarşılıqlı inamı, müştərək tədbirləri, ölkələrimiz arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, Zirvə görüşü zamanı dövlət rəhbərləri arasında aparılan müzakirələr, əldə olunan razılaşmalar, ticarət, mədəniyyət, enerji, nəqliyyat və digər bu kimi istiqamətlərdə imzalanan müxtəlif sənədlər, türk dövlətlərinin birliyi üçün yeni fürsətlər açır. Tarixən türk dünyasının əsas mərkəzlərindən olan Azərbaycanı XXI əsrdə də bu burliyin mərkəzində görmək qürurvericidir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Avropaya "yaşıl enerji" körpüsü də salacaq

Qədim neft diyarı olan Azərbaycan XXI əsrin birinci onilliyində özünü qaz ixrac edən ölkə kimi də təsdiqlədi. 2006-cı ildən Gürcüstana, 2007-ci ildən isə Türkiyəyə qaz nəql etdi. Sonra bu istiqamətdə açılan yollar geniş dəhlizə çevrilərək Xəzərin dərinliklərindən çıxarılan mavi yanacağı 2020-ci ilin dekabrında Avropaya çatdırdı.

Biz artıq elektrik enerjisi də ixrac edirik. Halbuki cəmi 20-30 il əvvəl özümüz ondan kəskin korluq çəkirdik. İndi regionun ən işıqlı ölkəsinə çevrilməsi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qısa müddətdə keçdiyi möhtəşəm inkişaf yolunun bariz nümunələrindəndir.

Yaxın zamanlarda Azərbaycan həm də "yaşıl enerji" ixrac edəcək. Bunun üçün ölkəmizin böyük potensialı var. Yəni Azərbaycan günəşi bol olan ölkədir və bu, günəş elektrik stansiyalarının tikilməsinə şərait yaradır. Bir sıra dağ rayonlarımızın təbiəti isə külək enerjisinin istehsalına imkan verir. Üstəgəl Xəzər dənizi kimi nəhəng bir enerji mənbəyini...

Bu istiqamətdə mühüm addımlar atılır. Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə xarici investorlar da həvəs və inamla qoşulublar. Bu ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisinə start verilib. Daha sonra - martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməli qoyulub.

Prezident İlham Əliyev işğaldan azad olunmuş əraziləri - 10 min kvadratkilometr ərazini - "yaşıl enerji" zonası elan edib. Xatırladaq ki, buraya daxil olan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Hazırda Cəbrayıl rayonunda bp şirkəti ilə birlikdə "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikintisi barədə danışıqlar davam edir.



Təsadüfi deyil ki, Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayen də cari ilin iyul ayında Bakıda olarkən Azərbaycanın sözügedən sahədəki potensialını vurğulayıb. Başqa sözlə, ölkəmizin bərpaolunan enerji istehsalı sahəsində imkanları Avropa İttifaqı tərəfindən yüksək dəyərləndirilir. Artıq külək və günəş enerjisinə sərmayə qoyuluşu prosesinə başlanıb. Bərpaolunan enerji potensialı ilə bağlı ilkin qiymətləndirmə də aparılıb. Bu məsələlər Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunda öz əksini tapıb.

Deməli, Azərbaycanın istehsal edəcəyi "yaşıl enerji"nin gələcək ixracı məsələləri də indidən diqqət mərkəzindədir.

Bu il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması da buna aydın misaldır. Məlum olduğu kimi, sazişi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rumıniyanın Baş naziri Nikolae Çuke, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Macarıstanın Baş naziri Viktor Orban imzalayıblar. Mərasimdə Rumıniya Prezidenti Klaus Yohannis və Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayen iştirak ediblər. Elə həmin gün bu məsələ ilə bağlı plenar iclas keçirilib.

Təbii ki, hər hansı bir ixrac layihəsinin həyata keçirilməsi öncədən genişmiqyaslı işlərin görülməsini, infrastrukturun yaradılmasını tələb edir. Elektrik enerjisinin ötürülməsinin də özünəməxsus çətinlikləri və spesifik cəhətləri var. Rumıniya Prezidenti Klaus Yohannis da məhz perspektivdə hələ görülməli işlərin çox olduğunu dedi: "Növbəti mərhələdə sualtı elektrik enerjisi xətti boyunca rəqəmsal xətti çəkməyi hədəfə alarıq. Dəniz nəqliyyat əlaqələrinin bizim Konstantadakı limanımızdan Gürcüstan istiqamətində genişlənməsi nəzərdə tutulur. Bu səylər Azərbaycanla və sonra Mərkəzi Asiya ilə bağlılığı artıracaq. Potensialımızdan yararlanmaq və dayanıqlılığı artırmaq üçün qarşıda bizi çoxlu işlər gözləyir".

Belə ki, bərpaolunan enerjinin inteqrasiya edilməsi üçün münasib interkonnektorlara ehtiyac yaranır. Buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə təchizatın təhlükəsizliyini gücləndirməyə kömək edəcək. Təsadüfi deyil ki, Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen imzalanan bu sazişin Avropa İttifaqını Cənubi Qafqazdakı tərəfdaşlarına daha da yaxınlaşdıracağını və təmiz enerjiyə keçidə nail olmağa dəstək verəcəyini bildirdi.

Söhbət tərəfdaşlıqdan düşəndə Azərbaycanın adının xüsusi vurğulanması da təsadüfi deyil. Ölkəmiz etibarlı tərəfdaş olduğunu bir çox layihələrlə, o cümlədən qaz ixracında, xüsusilə son dövrlər Avropanın mavi yanacağa ehtiyacının artdığı vaxt sübut edib. Azərbaycan qazının istehlakçılarının sayı getdikcə artır. Prezident İlham Əliyev sözügedən iclasda bu barədə də məlumat verdi: "Ötən il Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil etmişdir, bu il 11,3 milyard kubmetrdir. Növbəti il onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. Gələn il Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün, 2021-ci ildə o, 19 milyard kubmetr təşkil edirdi. Dünən Dövlət Neft Şirkəti və Romqaz 2023-cü il yanvarın 1-dən Azərbaycandan Rumıniyaya qazın təchizatı barədə müqavilə imzaladılar. Beləliklə, Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uduşlu vəziyyətdir, çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var".

İndi isə Azərbaycan Avropaya "yaşıl enerji" körpüsü salmağa başlayır. Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, "yaşıl enerji" təchizatçısına çevrilməyi planlaşdırır. 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisi istehsal etmək nəzərdə tutulur. Bunun 80 faizi ixrac olunacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Xüsusi təyinatlı polkovnik-leytenant Elşad Quliyevin xatirəsi anılıb

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində 2012-ci il aprelin 6-da Gəncə şəhərində keçirilən antiterror əməliyyatı zamanı qəhrəmancasına həlak olmuş xüsusi əməliyyatlar strukturunun polkovnik-leytenantı Elşad Quliyevin anadan olmasının 50 illiyinə həsr edilmiş tədbir keçirilib.




DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yubiley tədbirində mərhumun ailə üzvləri ilə yanaşı, DTX-nin əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları, Xidmətin Heydər Əliyev adına Akademiyasının kursantları və DTX-nin hərbi hissəsinin əsgərləri iştirak ediblər.

Tədbirdə çıxış edənlər Elşad Quliyevin təhlükəsizlik orqanlarındakı fəaliyyəti dövründə peşəkarlığından, əməliyyatlarda göstərdiyi xüsusi qəhrəmanlıqlardan, yüksək insani keyfiyyətlərindən söhbət açıb, ömrünün 17 ilini həsr etdiyi bu orqanlarda şərəfli xidmət yolu keçdiyini, Vətən uğrunda nümayiş etdirdiyi cəsurluq və fədakarlıq nümunələrinin gənc nəslə daim örnək olduğunu və gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyələndirilməsində mühüm rol oynadığını bildiriblər. Qeyd edilib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə polkovnik-leytenant Elşad Quliyevin müxtəlif vaxtlarda "İgidliyə görə", "Vətən uğrunda" medalları və ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunması onun xidmətlərinə dövlət səviyyəsində verilən yüksək qiymətin bariz təzahürüdür.

Ardınca tədbir iştirakçıları "Trend" Beynəlxalq İnformasiya Agentliyinin DTX-nin təşkilati dəstəyi ilə ərsəyə gətirdiyi, Elşad Quliyevin həyat və fəaliyyətindən bəhs edən "Qəhrəman xüsusi təyinatlı" sənədli filminə tamaşa ediblər.

Daha sonra qonaqlara DTX-nin Mədəniyyət Mərkəzinin hazırladığı bədii proqram təqdim olunub.

# Mühəndis təminatı üzrə tədbirlərin icrası davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı altında Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan Vətən müharibəsi nəticəsində azad edilən ərazilərimizdə mühəndis işləri davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Mühəndis Qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində cari ildə Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində mürəkkəb relyefli, o cümlədən çətin keçilən ərazilərdə bölmələrin fəaliyyətini təmin etmək məqsədilə ümumilikdə 334 kilometrdən çox yeni təminat yolu çəkilib.

Bundan başqa, Mühəndis Qoşunlarının hissə və bölmələri tərəfindən Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz, eyni zamanda fasiləsiz hərəkətini təmin etmək məqsədilə 2022-ci ilin noyabr və dekabr ayları ərzində ümumilikdə 2564 kilometr yol qar örtüyündən təmizlənib.

Azad olunmuş ərazilərimizdə mühəndis təminatı üzrə tədbirlər davam etdirilir.

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Haqlı tələb, qətiyyətli mübarizə

### Sərvətlərimizin talanmasına, ekoterrora son qoyulana qədər etiraz davam edəcək



Azərbaycan vətəndaş cəmiyyəti Şuşa-Laçın yolunda aksiyanı davam etdirir. Dekabrın 12-dən ekofəallarımız, QHT nümayəndələrimiz Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində separatçı rejimin təbii sərvətlərimizi talamasına, ekologiyamıza qarşı terror törətməsinə, "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarını həyata keçirməsinə qarşı etiraz edirlər.

İctimaiyyət nümayəndələri Qarabağ iqtisadi rayonunda ekoloji vəziyyətin pisləşməsi ilə bağlı ilkin monitorinq məqsədilə Azərbaycan Respublikası dövlət qurumlarının nümayəndələrinin və mütəxəssislərin əraziyə girişinə maneçilik törədilməsinə narazılıqlarını bildirirlər. Bir həftədən çoxdur ki, Şuşa-Laçın yolunda gecə-gündüz keşik çəkərək haqq səslərini ucaldan fəallarımız Azərbaycanın sözügedən ərazilərində qeyri-qanuni istismarın dayandırılmasını tələb edir, bütün təbii sərvətlərin istismarının Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilməli olduğunu qətiyyətlə bildirir, dünya ictimaiyyətinin diqqətini Ermənistanın törətdiyi ekoloji terrora çəkməyə çalışırlar.

### Sülh istəməyənlər erməniləri humanitar fəlakətə sürükləyirlər

Heç bir siyasi məqsəd güdməyən dinc xarakterli aksiyada erməni əsilli Azərbaycan vətəndaşları ilə bir problemlərinin olmadığını diqqətə çatdıran etirazçılar beynəlxalq sənədlərdə, eləcə də milli qanunvericilikdə təsbit olunmuş hüquqlarından istifadəyə maneçilik törədənlərə qarşı haqlı etiraz edirlər. Ermənistanın Azərbaycan ərazilərində ekoloji vəziyyətin pisləşməsinə səbəb olan və sərvətlərimizin talan edilməsi kimi əməllərinə son qoymasını tələb edirlər.

Ekoloji hüquqların müdafiəsi sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, ictimai fəalların tələbləri arasında Şuşa-Laçın yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinə də son qoyulması var.

Ermənistanın Rusiya sülhməramlılarının gözü qarşısında Cənubi Qafqazda sülhün bərqərar olmasına zərbə vuran bu xain davranışlarını durdurmaq, elə bu sayədə də regionda sülhə nail olmaq üçün keçirilən dinc aksiya, həm də erməni əsilli Azərbaycan vətəndaşlarının xeyrinədir. Çünki Azərbaycana qarşı səsləndirdiyi iddiaların tam əksinə, Ermənistan özü Azərbaycanda yaşayan ermənilərin humanitar fəlakət yaşamasında, bölgədə gərginlik yaranmasında maraqlıdır.

Bu baxımdan Ermənistan tərəfinin guya Laçın yolunun bağlanması, bölgədə humanitar fəlakət yaşanması, etnik təmizlənmə həyata keçirilməsi barədə iddiaları tamamilə böhtandır və həqiqəti əks etdirmir. Aksiya iştirakçıları da bildirirlər ki, dinc erməni əhalisinə məxsus mülki və təcili yardım maşınlarının keçidinə heç bir maneçilik törədilmir. Keçirilən sülh aksiyası səbəbindən Qarabağ ermənilərinin yaşadığı ərazilərin qazla təchizatı dayandırılmayıb və həyati əhəmiyyətli yüklərin keçməsinə maneçilik olmayıb. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə qaz təchizatı Ermənistan tərəfindən həyata keçirilir və sözügedən ərazilər ölkəmizin qaz təchizatı sisteminə hələki inteqrasiya edilməyib.

### Ermənilərin növbəti yalanları

Ermənistan tərəfi hər zamankı kimi bu dəfə də yalanlarına beynəlxalq arenada dəstəkçilər axtarmağa başlayıb. İctimaiyyət nümayəndələrimizin Qarabağ iqtisadi zonasında separatçı rejimin həyata keçirdiyi ekoterrora qarşı keçirdikləri haqlı etiraz aksiyasına siyasi don geyindirməyə, dünya ictimaiyyətini çaşdırmağa çalışırlar.

Təəssüf ki, bəzi ölkələr, konkret olaraq Kanada və Litva erməni yalanlarına dəstək olan bəyanatlar yayıblar.

Bu il dekabrın 16-da Litvanın Xarici İşlər Nazirliyi bəyanat verərək "Dağlıq Qarabağ" adlandırdıqları ərazidə kəskin humanitar böhrana səbəb olan "Laçın dəhlizinin" blokadasından dərin narahatlıq keçirdiklərini bildirib. Bu hadisələrin hərəkət azadlığına və Cənubi Qafqazda sülh prosesinə maneçilik törətdiyi iddia olunub.

Azərbaycan Xarici İşlər Nazirliyindən isə Litvanın bu təəssüf və təəccüb doğuran addımı ilə bağlı bildirilib ki, "Litva tərəfinə xatırladırıq ki, Azərbaycan ərazisində "Dağlıq Qarabağ" deyilən ərazi vahidi mövcud deyil. Litva artıq "Pribaltika" ölkəsi adlandırılmadığı kimi, Azərbaycanın Qarabağ İqtisadi rayonunun Sovet İttifaqı zamanı formalaşdırılmış keçmiş adlarla adlandırılması qəbuledilməzdir".

### Ermənistan üçtərəfli Bəyanatın şərtlərinə əməl etmir

Beynəlxalq aləm bilməlidir ki, Ermənistan 30 illik işğal dövründə də Azərbaycan torpaqlarında ekoloji terror törədib, Qarabağ və Şərqi Zəngəzurda "ölü torpaq" siyasəti həyata keçirərək bu ərazilərdə həyata dair hər nə varsa, hamısını məhv edib.

Ermənistanın yürütdüyü bu ekoloji terror transsərhəd çay olan Oxçuçaydan da yan keçməyib. Bu çay Ermənistan ərazisində daim çirkləndirilib. Aparılan araşdırmalar zamanı ortaya çıxıb ki, Qafan və Qacaran dağ-mədən sənayesinin tullantı suları təmizlənmədən birbaşa çaya axıdılır. Nəticədə çirklənmə səviyyəsinin normadan dəfələrlə artıq olması Oxçuçayın su ehtiyatlarının istifadəyə yararsız vəziyyətə düşməsinə gətirib çıxarıb.

Hazırda da, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarında separatçı rejim tərəfindən təbii sərvətlərin qeyri-qanuni istismarı və talanmasında aktivləşmə, o cümlədən ekoloji fəsadların genişlənməsi müşahidə olunur.

Bununla əlaqədar dekabrın 10-da Azərbaycan mütəxəssisləri faydalı qazıntıların qanunsuz istismar olunduğu "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarına səfər etmək istəsələr də, sülhməramlılar tərəfindən buna süni əngəl törədilir.

Azərbaycanın vətəndaş cəmiyyəti də Ermənistanın ərazilərimizdə törətdiyi bu qanunsuz əməllərinə dur demək üçün Şuşa-Laçın yolunda etiraz aksiyasına çıxıb və haqlı tələblərinin yerinə yetirilməsini istəyir.

Azərbaycana qarşı yalan bəyanatlar səsləndirərək erməni dəyirmanına su tökən ölkələrin nümayəndələri ölkəmizin işğaldan azad edilmiş ərazilərinə səfər edərək orada erməni vandallarının 30 il müddətində törətdikləri vəhşiliklərin izlərini daşıyan ərazilərimizi öz gözləri ilə görə bilərlər. Eləcə də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə gələrək gerçəkləri öz gözləri ilə görə, ermənilərin hazırda da qeyri-qanuni sərvətlərimizi talamasına, ekologiyamıza qarşı soyqırımı həyata keçirməsinə əyani şahidlik edə bilərlər.

Məhz Ermənistan tərəfinin 10 dekabr üçtərəfli Bəyanatının şərtlərinə əməl etməməsi nəticəsində Azərbaycan xalqının öz ərazilərində hüquqları pozulur, sərvətləri talanır, təbiəti məhv edilir. Ermənistan Laçın-Şuşa yolundan hərbi məqsədlərlə istifadə edərək torpaqlarımızda təxribatlar törədir.

Buna görə Azərbaycanın vətəndaş cəmiyyəti təsisatlarının dinc və haqlı etirazına hörmətlə yanaşılmalıdır və haqlı tələbləri yerinə yetirilməlidir. Artıq bir həftədən çoxdur ki, Şuşa-Laçın yolunda davam edən etiraz aksiyasına ictimai dəstək durmadan artır. Qışın bu sərt çağında, şaxtada, qarda gecə-gündüz haqq mücadilələrini sürdürən və əksəriyyətini gənclər təşkil edən vətəndaş cəmiyyətimizin nümayəndələri Rusiya sülhməramlılarını öz missiyalarını ədalətlə yerinə yetirməyə çağırır və qətiyyətlə bildirirlər ki, Azərbaycan ərazilərində sərvətlərimizin talanmasına, ekologiyamızın məhv edilməsinə imkan verməyəcəklər və qanuni tələbləri yerinə yetirilənə qədər aksiyalarını dayandırmayacaqlar.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## El bir olsa, dağ oynadar yerindən

### Şuşa-Laçın yolunda keçirilən aksiya milli həmrəyliyimizin təzahürüdür

Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərimizin qanunsuz istismarı və ekoloji vəziyyətin pisləşməsi ilə bağlı monitorinq aparmaq üçün əraziyə gedən Azərbaycanlı mütəxəssislərin girişinə süni əngəllər yaradılması etiraza səbəb olub.





Ekoloji terrora etiraz məqsədilə Şuşa-Laçın yolunda başlanan aksiya günlərdir ki, eyni coşqu və əzmkarlıqla davam edir. İştirakçılar təbii sərvətlərimizin ermənilər tərəfindən talan edilməsinə qarşı çıxırlar.

"Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarı bir daha sübut edir ki, ermənilərin ekosidi davam edir. Aksiya iştirakçıları tələb edirlər ki, sülhməramlı kontingentin müvəqqəti nəzarət zonasındakı ərazilərdə qeyri-qanuni istismar dayandırılmalı, bütün təbii sərvətlərin istismarı Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilməlidir. Fəallar tələblərində israrlıdırlar, onlar mübarizələrini nəticə əldə edənə qədər davam etdirəcəklərini bildirirlər. İştirakçılar humanizm prinsiplərinə tamamilə əməl edir, dinc erməni əhalisinə heç bir problem yaratmırlar. Ermənilərin Laçın yolunun bağlanması ilə guya Qarabağdakı mülki şəxslərin, xüsusilə də xəstələrin ərazidən çıxa bilməmələrinə dair iddiaları isə əsassızdır. Çünki həmin hissədə Rusiya sülhməramlı kontingentinin postları yaradılmışdır.

### Ekoterroristlərin cavabını vermək vaxtıdır

Aksiya iştirakçısı, jurnalist Samir Xalidoğlu deyib ki, Azərbaycan genosid, urbisid və ekosid də daxil olmaqla, terrorun, demək olar ki, bütün növlərinə məruz qalmış yeganə dövlətlərdəndir: "Otuz ilə yaxın müddət ərzində mənfur qonşularımız, erməni vandalları işğalda olan ərazilərimizi ekosidə məruz qoyublar - yeraltı, yerüstü sərvətlərimizi amansızlıqla talayıb, meşələrimizi qırıb, su hövzələrimizi çirkləndiriblər. Müxtəlif ekoloji terrorlara şahidlik edən Azərbaycan bu mənada böyük itkilərlə üzləşib. Təəssüf ki, bu proses indi də davam edir. 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə uzun illər qanunsuz istismara məruz qalmış yataqların bir çoxunda ekoloji vəziyyət nəzarət altına alınsa da, sülhməramlılar buna tam nail olmağımıza imkan verməyiblər. Dekabrın 10-da Azərbaycan mütəxəssisləri faydalı qazıntıların qeyri-qanuni istismar olunduğu yataqların yerləşdiyi əraziyə səfər etmək istəsələr də, sülhməramlılar tərəfindən buna süni əngəl törədilib. Rusiya sülhməramlı kontingentinin heç bir tədbir görməməsi fonunda, yerli erməni sakinlərin əvvəlcədən planlaşdırılmış aksiyası ekoloqlarımızın səfərinə mane olub. Belə olan halda, Azərbaycan ekoloqları Qarabağ iqtisadi zonasında yerləşən "Qarabulaq" və "Dəmirli" yataqlarının ilkin monitorinqini həyata keçirə bilməyiblər. Ona görə də vətəndaş cəmiyyəti institutları, eko-fəalar və jurnalistlər Azərbaycan dövlətinin icazəsi olmadan, tamamilə qanunsuz şəkildə istismar edilərək ölkəmizə həm iqtisadi, həm də ekoloji ziyan vurulmasının əleyhinə mübarizəyə qalxıblar".

### Etirazçılar Şuşa-Laçın yoluna axın edirlər

S.Xalidoğlu bildirib ki, ilkin olaraq ekofəalların iştirakı ilə başlayan aksiya bu gün cəmiyyətin, demək olar ki, bütün təbəqələrini əhatə edir: "Fəallar etiraz səslərini duydurmaq üçün Şuşa-Laçın yoluna axın edir, tələblərini dilə gətirirlər. Biz də aksiyada iştirak edərək haqlı mübarizəyə dəstəyimizi ifadə edirik. Bu aksiya tamamilə sivil formada həyata keçirilir, sülhməramlılarla hansısa insident yaşanmır. Onu da qeyd edim ki, Laçın yolu azərbaycanlı fəallar deyil, sülhməramlılar tərəfindən bağlanılıb. Ermənilərin guya azərbaycanlıların yolu bağlayaraq humanitar fəlakət yaratmaları kimi iddiaları cəfəngiyyatdır. Aksiya iştirakçıları humanitar yüklərin hər iki istiqamətdə daşınması üçün heç bir əngəl yaratmırlar".

Jurnalistin sözlərinə görə, etiraz aksiyasının bir məqsədi də Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərə silah-sursat daşınmasının və təbii sərvətlərimizin talan edilməsinin qarşısını almaqdır: "Yeni tələblərə əsasən isə, Laçın yoluna Azərbaycanın müvafiq qurumlarının nəzarət məntəqələrinin yerləşdirilməsi də daxildir. Azərbaycan ekoloqları monitorinq üçün həmin ərazilərə buraxılana qədər bu dinc aksiya davam edəcək. Tələblərimiz nəzərə alınmalı, ekoloji terrora son qoyulmalıdır".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

## Ekoloji fəallar tələblərində israrlıdırlar

30 illik erməni işğalından iki il bundan öncə azad edilən Azərbaycan ərazilərində yeraltı və yerüstü təbii sərvətlərin qeyri-qanuni istismarı və daşınması ilə əlaqədar Şuşa-Laçın yolunda dekabrın 12-dən etibarən keçirilən qeyri-hökumət təşkilatı nümayəndələrinin, ictimai fəalların, könüllülərin etiraz aksiyasına qoşulanların sayı gündən-günə artmaqdadır.



Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət qrupun Qarabağ iqtisadi rayonunda apardığı araşdırmalara görə, işğalın mövcud olduğu 30 il ərzində Ermənistan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yeraltı-yerüstü sərvətlərini barbarcasına talayıb, xarici şirkətləri qanunsuz şəkildə bölgəyə cəlb edib. Bu şirkətlər həm Ermənistana, həm də digər xarici ölkələrə məxsusdur.

Neçə gündür davam edən bu aksiyada iştirakçılar təbii sərvətlərimizin, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etirazlarını bildirirlər. Azərbaycan mütəxəssislərindən ibarət heyətin həmin yataqlarda monitorinq aparmasına Rusiya sülhməramlıları tərəfindən şərait yaradılmasını tələb edirlər.

Xatırladaq ki, Azərbaycanın Baş Prokurorluğunun hələ 2018-ci ildə apardığı araşdırmalara görə, Ermənistanda və digər ölkələrdə hüquqi qeydiyyatdan keçən "Vallex Group", "Base Metals", ACP, Lerna Metalurgiayi İnstitute, "Teghout" və digər şirkətlər, o cümlədən Ermənistandan olan fiziki şəxslər qızıl hasilatı biznesinin təşkilində iştirak ediblər. İsveçrədə qeydiyyatdan keçən "Vallex Group" şirkətini erməni biznesmen Valeri Meclumyan təsis edib. Şirkət müxtəlif ölkələrdə qeydiyyatdan keçən Kipr, Lixtenşteyn və s. - törəmə şirkətləri də özündə birləşdirir. Şirkətin maliyyə mənbələrindən biri kimi Rusiyanın VTB bankının da adı çəkilir. Bu isə Ermənistan və Rusiyada, eləcə də işğal dövründə Qarabağda fəaliyyət göstərmiş şirkətlər də daxil olublar.

2001-ci ildə "Base Metals" şirkətini təsis edən "Vallex Group" işğal dövründə Kəlbəcərin "Heyvalı" yatağını istismar edərək, qurudub. Məlumatlara görə, 2009-2011-ci illərdə 400 min ton filiz emal edilib, halbuki bu müddətdə emal həddi 150 min ton filiz olmalıdır. "Heyvalı"nı qurudandan sonra şirkət 2011-ci ildə keçmiş Ağdərə rayonundakı "Kaşen" - "Dəmirli" yatağının istismarına başlayıb. Bu yataqdan çıxarılan filiz əsasən Avropa ölkələrinə ixrac edilib.

"Base Metals" istismara qeyri-qanuni şəkildə xarici mütəxəssisləri də cəlb edib. Misal üçün, Cənubi Afrikadan olan mədən mühəndisi Johann Murrayın 2016-cı ildə separatçıların "televiziyasına" müsahibəsi bunu təsdiq edir. Belə mütəxəssislərdən biri də "Base Metals" şirkətinin (eyni zamanda "Vallex Group" şirkətlər qrupunun) maliyyə investoru, İsveçrə vətəndaşı Vartan Sirmakesdir.

Danimarkanın "FLSmidth" şirkəti də 2006-cı ildən "Vallex Group" ilə əməkdaşlıq çərçivəsində işğal altındakı ərazilərdə yataqların istismarına cəlb edilib. Bu şirkət "Vallex Group"un avadanlıq və layihələndirmə ilə bağlı sifarişlərini yerinə yetirib, yerli işçilərə treyninqlər keçmək üçün mütəxəssislər təqdim edib, o cümlədən 2008-ci ildə Ermənistanın Lori regionunda "Vallex"ə məxsus olan "Teghut" mis-molibden yatağında sifarişlə xidmətlər göstərib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri, aksiya iştirakçısı Amin Məmmədov mətbuata açıqlamasında bildirib ki, aksiya tələblərimiz təmin edilənə qədər davam etdiriləcək: "Nəzərə almaq lazımdır ki, biz tələblərimizdə tamamilə haqlıyıq. Aksiyanın məqsədi qeyri-qanuni istismara məruz qalan faydalı qazıntı yataqlarımızda Azərbaycan ekoloqları tərəfindən monitorinq keçirilməsinə, ətraf mühitin vəziyyətinin qiymətləndirilməsinə nail olmaqdır. Bunun üçün isə sülhməramlı kontingentin komandanı Andrey Volkovla görüşüb razılığa gəlmək, adekvat şəraitin yaradılmasını təmin etmək lazımdır. Dekabrın 12-dən etibarən davam edən dinc aksiyada qeyri-hökumət təşkilatlarının nümayəndələri, ekoloqlar və jurnalistlər əzmkarlıqla iştirak edir, "Ekoloji terrora son!", "Təbiətimizi qoruyaq!", "Mina terroruna son!" kimi şüarlar səsləndirirlər".

A.Məmmədov deyib ki, həmin yataqlar Azərbaycanın ən perspektivli mədən sahələrindən hesab edilir: "İşğal dövründə həmin yataqlar "Vallex Group" erməni korporasiyası tərəfindən talan olunub və bu, indi də davam edir. Lakin bu gün Azərbaycan Vətən müharibəsindəki qələbəsi ilə ərazi bütövlüyünü bərpa edib. Belə olan halda ekodüşmənlər tərəfindən həmin yataqların qeyri-qanuni istismarı qəbuledilməzdir. Azərbaycan ictimaiyyətinin məqsədi də belə terrorlara birdəfəlik son qoymaq və ekoloji sabitliyi qorumaqdır".

44 günlük Vətən müharibəsindəki tarixi qələbəsindən sonra Azərbaycan işğaldan azad edilmiş ərazilərdə uzun illər qanunsuz istismara məruz qalmış yataqlarda ekoloji vəziyyəti nəzarət altına alıb. Lakin Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə hələ də buna tam nail olunmayıb. Məqamdan istifadə edərək erməni əsilli milyarder Ruben Vardanyan Azərbaycanın təbii sərvətlərini talamaq məqsədilə Qarabağa köçərək istəyinə nail olmaq üçün müxtəlif terror və pozuculuq fəaliyyəti ilə məşğul olur. Separatçılar 10 noyabr üçtərəfli Bəyanatından irəli gələn öhdəliklərin yerinə yetirilmədiyi bir vaxtda Qarabağın təbii sərvətlərini, eləcə də "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarını mümkün qədər talamağa davam edirlər.

Təbii ki, Azərbaycan ictimaiyyəti Ermənistan və onun havadarları, o cümlədən Ruben Vardanyan kimi erməni oliqarxların Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeraltı sərvətlərimizi vəhşicəsinə istismar etməsinə göz yuma bilməz. Vətəndaş cəmiyyəti fəalları və gənclər ermənilər tərəfindən törədilən ekoloji terrora dinc aksiya keçirməklə etiraz edirlər. Fəallar etirazlarını sivil qaydada bildirir, tələblərini müxtəlif şüarlar vasitəsilə səsləndirirlər.

Aksiya iştirakçıları humanizm prinsiplərinə tamamilə əməl edir, dinc erməni əhaliyə heç bir problem yaratmırlar. Ermənilərin Laçın yolunun bağlanması ilə guya Qarabağdakı mülki şəxslərin, xüsusilə də xəstələrin ərazidən çıxa bilməmələrinə dair iddiaları əsassızdır. Azərbaycan Xarici İşlər Nazirliyi bununla bağlı bildirib ki, Laçın yolu azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiyanın sülhməramlı kontingenti tərəfindən bağlanıb. Aksiya fəalları haqlı tələbləri nəzərə alınana qədər aksiyanı davam etdirəcəklərində israrlıdırlar.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# Riyakar siyasət, sistemli təxribatlar, antiazərbaycançı mövqe və islami dəyərlərə hörmətsizlik - İranın əsl mahiyyəti

## İranda neftçilər və həkimlər də etirazçılara qoşuldular

İranda mövcud rejimə qarşı kütləvi etiraz aksiyaları səngimək bilmir.

Sentyabrın 16-da Tehranda 22 yaşlı Məhsa Əmininin hicaba görə əxlaq polisi əməkdaşları tərəfindən saxlanması və sonradan vəfat etməsinə etiraz olaraq ölkənin bir neçə şəhərində aksiyalar keçirilməyə başlayıb. Hazırda etirazlar müxtəlif sahələr, iqtisadiyyat, sosial və etnik bərabərsizlik, qeyri-adekvat cəzalar, ilk növbədə edam hökmləri və digər məsələlərlə bağlı məsələləri əhatə edir.

Dünən aralarında onlarca tanınmış simanın da olduğu yüzlərlə yazıçı, tərcüməçi, tədqiqatçı və mədəniyyət fəalı bəyanat yayıblar. Yazarlar İranda yeni edam dalğasına qarşı çıxış edib və "bu bədnam prosesə" tezliklə son qoyulmasını istəyiblər.

"Günaz.tv" telekanalı bəyanatdan sitat gətirir: "Biz - bu bəyanatı imzalayanlar, edama, bu mütəşəkkil hökumət qətlinə qarşı olduğumuzu bəyan edir və İran xalqı ilə birlikdə bu prosesə son qoyulmasını tələb edirik".

Məlumata görə, bəyanatı Dariuş Aşuri, Murad Fərhadpur, Yusif Abazəri, Firuzə Mühacir, Nazi Əzima, Fatimə Vəlyiani, Abbas Müxbir və Möhsün Yelfani kimi tanınmış simalar imzalayıblar.

Əslən Güney Azərbaycanın Həmədan şəhərindən olan və Norveçdə yaşayan Nobel mükafatı laureatı, insan haqları müdafiəçisi Şirin İbadi vətəndaşlara müraciət edərək İran banklarında olan bütün əmanətlərini çıxarmağı xahiş edib.

O, dekabrın 18-də yaydığı görüntülü mesajında insanları İran hökumətinin xidmətində olan bütün qurumların boykot edilməsinə çağırıb.

İnsan haqları müdafiəçisi xüsusilə son illər Tehran rejiminin repressiyaları şiddətləndirdiyini və artıq bu rejimin xalqın iradəsinə əhəmiyyət vermədiyinin hamıya sübut olunduğunu deyib.

Məhsa Əmininin öldürülməsindən sonra başlayan ümumxalq nümayişlərini Tehran hökumətinin quruluşuna ciddi zərbə vurduğunu deyən İbadi vətəndaşlara, bu rejimin qulluğunda olan bütün qurumlara qarşı barışmaz mövqe tutmalarını tövsiyə edib.









Nobel mükafatı laureatı öz çıxışında bildirib ki, banklar ölüm respublikasının qırğın maşınının iqtisadi qoludur və bu qurum artıq xalqa xidmət etmir.

"Tasnim" Agentliyinin xəbərinə görə, "Kommivoyajor" filmində rol alan məşhur iranlı aktrisa Təranə Əlidosti İslam Respublikasında yalan məlumat yaymaq və anti-İran hərəkatını dəstəkləmək ittihamı ilə həbs edilib.

Qeyd edək ki, "Kommivoyajor" filmi 2017-ci ildə xarici dildə ən yaxşı film kimi "Oskar" mükafatına layiq görülüb.

Qum Tibb Universitetinin İctimaiyyətlə əlaqələr bölməsinin yaydığı məlumata görə, dekabrın 18-də 4 molla soyuq silahla hücuma məruz qalıb. Din xadimlərinin vətəndaşların geyim tərzlərinə irad bildirməsi, onları təhqir etməsi səbəbindən döyüldüyü bildirilir.

Mollalardan ikisi ambulator müalicədən sonra evə buraxılıb, ikisi isə ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.

Bildirilir ki, son illərdə İranın müxtəlif yerlərində mollaların vətəndaşların şəxsi həyatına müdaxilələri onların döyülməsi, bir sıra hallarda isə öldürülmələri ilə nəticələnib. Məsələn, son bir neçə ay ərzində Qum, İsfahan, Tehran, Günbədi Kavus, Zahidan bölgələrində onlarca mollaya hücum edilib və onlardan dördü həlak olub.

İranın cənubunda yerləşən bir sıra neft şirkətlərinin işçiləri də etiraz aksiyalarına qoşulublar. Pars Neft-Qaz Şirkəti, Cənub Neft Zonaları Milli Şirkəti və bir neçə digər neft və neft-kimya şirkətinin işçiləri mövcud iqtisadi duruma, onlara verilən və yerinə yetirilməyən vədlərə etirazlarını bildirirlər.

İranda 2 nəfərin təhlükəsizlik məmurlarını öldürməsi ittihamı ilə edam olunmasından sonra hər gün şübhəli ölüm halları qeydə alınır. Dekabrın 17-də əslən azərbaycanlı Ayda Rüstəmi adlı həkimin öldürüldüyü açıqlanıb. Bu həkimin gizli şəkildə etiraz aksiyalarında yaralanan şəxsləri müalicə etdiyi qeyd olunur.

Telekanalın yaydığı son məlumata görə, bir qrup səhiyyə sistemi işçisi müraciət yayaraq dekabrın 19-dan 3 gün müddətinə tətil aksiyasına başlayacaqlarını bildiriblər.

Həkimlər və səhiyyə işçiləri gənc həkim Ayda Rüstəminin təhlükəsizlik məmurları tərəfindən öldürülməsinə etiraz əlaməti olaraq işi dayandıracaqlarını bildiriblər.

Qeyd edilir ki, İranda etiraz aksiyaları başlayandan bu günə kimi Ayda Rüstəmidən başqa daha iki türk həkim, zəncanlı Pərisa Bəhməni noyabrın 4-də Tehranda, məlikanlı Aylar Həqqi isə noyabrın 16-da Təbrizdə hökumət məmurları tərəfindən güllələnərək öldürülüblər.

Norveçdə yerləşən İran İnsan Haqları Təşkilatı (IHR) Məhsa Əmininin ölümündən sonra İslam Respublikasını bürümüş kütləvi etirazlarda 469 nəfərin öldürüldüyünü bildirib.

Təşkilat İranın 31 əyalətindən 26-da etiraz aksiyalarının qurbanları ilə bağlı son məlumatları təqdim edib.

IHR-in məlumatına görə, ən çox ölənlər əhalisinin əksəriyyətinin sünni müsəlman olduğu Sistan-Bəlucistan əyalətindədir. Burada iğtişaşlar zamanı 130 nəfər həlak olub.

Hüquq müdafiəçiləri qeyd edirlər ki, həlak olan nümayişçilərdən 32-si qadın, 63-ü azyaşlıdır.

Norveçli hüquq müdafiəçiləri bildiriblər ki, həbsdə olan azı 39 nümayişçinin işi ölüm hökmü tələbi ilə məhkəməyə göndərilib, onlardan 11-i artıq hakimlər tərəfindən edam cəzasına məhkum edilib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Berlində İrandakı soydaşlarımıza dəstək aksiyası keçirilib

"Almaniyadakı Azərbaycanlı İcması" Təşkilatı tərəfindən Berlinin Brandenburq Qapısının önündəki məşhur Paris meydanında İrandakı azərbaycanlı soydaşlarımıza dəstək məqsədilə aksiya keçirilib.

AZƏRTAC xəbər verir ki, aksiyaya Almaniyanın müxtəlif şəhərlərindən gəlmiş diaspor üzvləri, habelə cənubi azərbaycanlı siyasi fəallar qoşulublar. Aksiya iştirakçıları hazırda İranda baş verən hadisələr fonunda soydaşlarımızın fundamental hüquqlarının pozulmasına, fəal gənclərin İranın hüquq-mühafizə orqanları tərəfindən təqib edilmələri və qətlə yetirilmələrinə etirazlarını bildiriblər.




Bununla yanaşı, iştirakçılar hazırda Şuşada ekofəalların Azərbaycanın təbii sərvətlərinin erməni separatçıları tərəfindən qanunsuz istismarına qarşı keçirdikləri aksiyaya dəstək nümayiş etdirib, Ermənistan hakimiyyətini 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan irəli gələn öhdəlikləri icra etməyə çağırıblar.

## Milli azadlıq hərəkatı Güney Azərbaycan nəsrində

XX yüzilliyin son səksən ili bütün dünyada olduğu kimi, Güney Azərbaycanda da bir sıra taleyüklü hadisələrin baş verməsi ilə xarakterizə olunur. XIX əsrin ilk çərəyində İran və Rusiya imperialistlərinin qanlı çəkişmə meydanına çevrilmiş Azərbaycanın 1828-ci ildə iki yerə parçalanması ilə ölkədə gedən bütöv ədəbi proses də bir-birindən təcrid olunaraq hər biri öz məcrası ilə davam etməyə başladı. Bütövlükdə o qədər də zəngin bədii nəsr ənənələrinə malik olmayan Azərbaycan ədəbiyyatında nəsrin inkişafı şimalda Avropa və rus nəsri ilə bağlı oldusa, cənubda daha çox farsdilli İran nəsrinin ənənələrinə meyil etdi.

Fars dilində qələmə alınmış və bütövlükdə İran cəmiyyətinin problemlərinin bədii inikasına yönəlmiş Marağalı Zeynalabidin və Mirzə Əbdürrəhim Talıbov kimi böyük yazıçıların nəsri özündən sonrakı Azərbaycan ədəbiyyatını məzmun və məna siqləti baxımından zənginləşdirsə də, bu, hələ sırf Azərbaycan nəsri hesab edilə bilməzdi. Həqiqi mənada Cənubi Azərbaycan nəsrinin meydana çıxması yalnız XX yüzilliyin ortalarına, daha dəqiq desək, İkinci Dünya müharibəsi illərinə təsadüf edir.

İranın orta əsrlər sxolastikasından xilas edilməsi prosesinin başlanğıcı XX yüzilliyin əvvəllərində məhz Azərbaycanda yetişən proqressiv qüvvələr tərəfindən qoyulmuşdur. 1906-1911-cu illərdə Səttar xanın başçılığı ilə bütün İranı lərzəyə gətirmiş milli azadlıq və məşrutə hərəkatı, 1920-ci ildə Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi və qısa müddətli uğur qazanmış milli azadlıq hərəkatı və bir çox başqa xalq hərəkatları bunun əyani sübutudur. Bu hərəkat və üsyanların xəyanət yolu ilə qan içində boğulması uzun müddət qorxu və psixoz toxumları səpsə də, xalqın iradəsini qıra bilməmiş, yaddaşlarda yaşamış, sonrakı illərdə bir çox bədii əsərlərin, o sıradan nəsr əsərlərinin sevimli mövzusuna çevrilmişdir.

XX əsrin 40-cı illərində Cənubi Azərbaycanda müstəqil demokratik hökumətin qurulması isə, təbii ki, ədəbi-mədəni həyatın bir çox sahələri kimi nəsrin də inkişafına rəvac verdi. Mövzusu çağdaş həyatdan götürülmüş nəsr örnəkləri i1ə yanaşı, qırxıncı illərdə yaxın keçmişə, milli azadlıq hərəkatının tarixinə və qəhrəmanlarına müraciət edən nümunələrə də rast gəlmək mümkündür. Əlbəttə, başlanğıcda bu, təbii ki, bədii memuar janrında qələmə alınmış yazılarda müşahidə olunurdu. Belə əsərlərdən biri - Səttar xan hərəkatında yaxından iştirak etmiş, bu xalq qəhrəmanının silahdaşı olmuş Qulaməli Səmsamın "Sərdari-milli haqqında xatirələr" adlı yazısıdır. Müəllifin öz şəxsi müşahidələri və görüşləri əsasında qələmə alınmış bu əsər xalq hərəkatının, Məşrutə inqilabının daha bir rakursdan açılması baxımından maraq doğurmuşdur. Əsərin əsas qəhrəmanı Səttar xanla yanaşı, onun silahdaşı - Salari-milli Bağır xan obrazının açıqlanmasına da geniş yer verilmiş, inqilabi hərəkatın qarşısını almaq üçün canfəşanlıq göstərən bir sıra mənfi tarixi obrazlar realizm prizmasından təsvir edilmişdir. Bunların sırasında Məhəmmədəli şahı, Eynüddövləni, Rəhim xanı, Mir Haşimini, Şüca Nizamını, Səməd xanı, rus konsulunu, Ərdəbil xanlarını və b. göstərmək olar. Mübarizəni doğru-düzgün əks etdirmək baxımından əsərin böyük tarixi-bədii əhəmiyyəti vardır.

Bu dövrdə yaranmış memuar ədəbiyyatının qiymətli örnəklərindən biri də milli demokratik hərəkatın rəhbəri Mir Cəfər Pişəvərinin fars dilində qələmə aldığı "Zindan xatirələri dəftərindən" adlı əsəridir. Əsərin dili - ondakı azərbaycanlı təfəkkürünün, baş verən hadisələrə azərbaycanlı mövqeyindən yanaşmanın üzə çıxmasına mane ola bilməmişdir.

Əsər İranın 1920-1940-cı illərdəki ictimai quruluşunda hökm sürən özbaşınalığın ifşası ilə yadda qalır. Mir Cəfər Pişəvərinin ədəbi yaradıcılığında həbsdə olduğu vaxt qələmə aldığı "Zindan xatirələri dəftərindən" əsəri mühüm yer tutur. Əsər müəllifin gördüyü, şahidi olduğu, şəxsən iştirak etdiyi hadisələr haqqında xatirələrdən ibarətdir: "Mir Cəfər zindanda həm siyasi, həm də ədəbi fəaliyyətini davam etdirirdi. İranın "Qəsr" zindanında Pişəvəri ilə bir yerdə olmuş ədib və siyasi xadim Ehsan Təbəri və başqalarının iştirakı ilə ədəbi-bədii dərnək təşkil edilmişdi".

M.C. Pişəvərinin sonralar "Ajir" qəzetində "Zindan xatirələri dəftərindən" başlığı altında çap olunmuş yazısı xatirə-povestin bir hissəsidir. Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən 1984-cü ildə Mir Cəfər Pişəvərinin "Seçilmiş əsərləri"nə həmin povest "Zindan xatirələri dəftərindən" adı ilə salınmışdır.

1925-ci ildə ingilis işğalçılarının köməyinə arxalanan Rza şah İran taxtını qəsb edərək son dərəcə mürtəce bir rejim yaratdıqdan sonra Cənubi Azərbaycanda ana dilinin və ədəbiyyatın inkişafına ağır zərbə vuruldu. Yalnız 1941-ci ildə başda sovet ordusu olmaqla müttəfiq qoşunların İran ərazisinə girməsindən sonra GüneyAzərbaycanda və xüsusən onun paytaxtı Təbriz şəhərində də ana dilində ədəbiyyat örnəkləri yaranmağa və çap edilməyə başladı.

Yaranma məkanına görə XX yüzilliyin Güney Azərbaycan nəsrini iki böyük qrupa ayırmaq olar: Güney Azərbaycan ərazisində və ədəbi mühitində yaranan nəsr və mühacirət nəsri. Dil baxımından hər iki qrup ikidilli olub, həm Azərbaycan, həm da fars dillərindən istifadə etmişdilər. Bununla yanaşı, Şimali Azərbaycanda cənub mövzusunda yaranmış nəsr örnəklərini də fərqləndirmək lazımdır.

Güney Azərbaycan ərazisində əsasən ana dilində formalaşan nəsrin ilk örnəkləri 1941-ci ildən Təbrizdə nəşrə başlayan "Azərbaycan" qəzetində çap olunmağa başlamışdır. Uzun əsrlər boyu boğulan, ədəbiyyat səhnəsindən sıxışdırılan və yalnız doğma ocaq, kənd-kəsək, ailə mühitində, şifahi xalq ədəbiyyatı örnəklərində sevilə-sevilə qorunub saxlanan ana dilinə marağın bu dövrdə kəskin şəkildə artması çox təbii və qanunauyğundur. Bu illərdə yazılan və nəşr olunan nəsr örnəklərində xalq dilinin təkraredilməz şirinliyi ilə yanaşı, şimalda artıq xeyli inkişaf edərək formalaşmış və öz milli simasını qazanmış nəsr dilindən və ədəbi-bədii üslubundan da böyük dərəcədə bəhrələnmə nəzərə çarpır. Bu təsirlənməni, şübhəsiz ki, tematik baxımdan da aşkara çıxarmaq mümkündür. Xüsusən 1941-1946-cı illərdə sovet ordusu hissələri Təbrizdə olarkən bilavasitə sovet ideologiyasının təsiri altında nəşr olunan "Azərbaycan", "Azad millət", "Vətən yolunda" və başqa qəzet və jurnallarda xilaskar sovet əskəri obrazı, bolşevik ideologiyası, bütün dünyanın milli və sinfi zülm altında əzilən xalqlarına azadlıq bəxş etmək missiyasını öz üzərinə götürmüş "Qızıl Moskva" obrazı işıq üzü görən nəsr örnəklərində aparıcı yer tuturdu. Ancaq aydındır ki, bu, çox vaxt zahiri qabıq, pərdə rolunu oynayır, dərin qatlarda isə milli azadlıq, milli qurur, qəhrəman keçmişlə fəxretmə ideyaları özünü büruzə verirdi.

İlk dövrlərdə daha çox hekayə janrı ilə təmsil olunan bədii nəsrin ilk uğurlu müəllifləri M. Hilali, Vəylər Haili və Nəmzə Fəthi Xoşginabi olmuşdur. Xüsusən milli hökumət qurulduqdan sonra bu yazıçıların və onların sırasından olan M. Ərməğani, Q.Səmsam, G.Səbahi və başqa nasirlərin böyük həvəs və məhsuldarlıqla işlədiyini görmək mümkündür. Sanki bu vətənpərvər yazıçılar güneydə demokratik qüvvələrin tezliklə məğlub olacağını intuisiya ilə anladıqlarından, əldə olan fürsətdən daha səmərəli istifadə etməyə çalışırdılar.

Gənc yaşlarından demokratik hərəkatın fəal üzvlərindən biri kimi tanınmış, əsərlərini üç dildə - Azərbaycan, fars və rus dillərində qələmə almış Həmzə Fəthi Xoşginabi orijinal üsluba, rəvan dilə, maraqlı obrazlı ifadələrə malik olan bir yazıçıdır. 1945-ci ildə Təbrizə qayıdarkən ədəbi fəaliyyətini əsasən ana dilində davam etdirmiş, məsul redaktoru olduğu "Azərbaycan" qəzetində onlarca siyasi mövzulu felyetonu, oçerkləri, hekayələri işıq üzü görmüşdür. Bütün bu əsərlər günün aktual problemlərinə həsr edilməklə şirin, oxunaqlı, canlı xalq dilində yazıldığına görə oxucuların dərin rəğbətini qazanmışdır. Bu zaman yazdığı irihəcmli prozaik janrlarda da qələmini sınamış, milli hökumət dövründə "Suvarılmış poladlar", "Eşq və müharibə" povestlərini yazıb Təbrizdə çap etdirmişdir. Onun "Züleyxa", "İbrahim" və başqa hekayələri çağdaş Güney Azərbaycan nəsrinin ilk uğurlu örnəklərindən sayılmalıdır.

Bu baxımdan güney nəsrinə yanaşdıqda barmaqla sayılacaq miqdarda sənətkarların yetişdiyini görürük ki, bunlardan biri də milli müstəqillik dövründə bədii nəsr örnəkləri ilə özünü geniş oxucu kütləsinə tanıtdırmış M. Hilalidir. Onun "İntiqam" hekayəsi yoxsul insanların dözülməz həyatından bəhs edir. Hekayədə Məşədi Qulam adlı bir kəndlinin dükanın qabağında faytondan düşən zəngin libaslı bir ağadan intiqam alması və onun səbəbləri açıqlanır. Məşədi Qulam ağadan intiqam aldığı üçün peşman olmur, lakin həbsxanaya düşdükdən sonra qızının taleyini düşünür və müstəntiqə deyir ki, qızına yazığı gəlsin. Onu dinləyən müstəntiqin gözləri yaşarır. Hekayədə Məşədi Qulamın öz hüququnu qorumaq üçün azğın ağadan intiqam alması yazıçı tərəfindən təqdir olunur.

Bu dövrdə Cənubi Azərbaycan nəsrinin şimal örnəyi əsasında formalaşıb inkişaf etməsində sovet ordusunun tərkibində gəlmiş Azərbaycan ziyalılarının böyük rolu olmuşdur. Bunların sırasında ön yerlərdən birini görkəmli Azərbaycan ədəbiyyatşünas alimi, yazıçı və şairi Cəfər Xəndan tutmuşdur. Onun 1944-1945-ci illərdə Təbrizdə nəşr edilən "Vətən yolunda" adlı qızıl əskər qəzetinin nəzdində təşkil etdiyi "Şairlər məclisi" Cənubi Azərbaycanda ədəbiyyatın inkişafı, xüsusən bədii nəsrin formalaşması yolunda müstəsna işlər görmüşdür. Bu məclisin qısamüddətli - cəmi bir illik işini yüksək qiymətləndirən demokratik hərəkat liderlərindən biri- Seyid Cəfər Pişəvəri yazırdı: "Şairlərimizin keçən şəhrivərdən indiki şəhrivərə qədər yazdıqları, cürətlə demək olar ki, əlli il müddətində yazdıqlarından daha artıq ola bilər."

Əlbəttə, aydındır ki, burada söhbət yazılan əsərlərin miqdarından, sayından deyil, sanbalından, ictimai məzmunundan, xalqın və dövlətin qarşısında duran problemlərin həlli yolunda oynadığı roldan gedir. Bu baxımdan yanaşdıqda Seyid Cəfər Pişəvərinin sözlərində böyük həqiqət payının olduğunu etiraf etmək lazımdır.

Cənubi Azərbaycan milli hökumətinin süqutu Azərbaycan xalqının yaşadığı ən böyük müsibətlərdən biri kimi tariximizin əbədi qara səhifələrindən biri olaraq qalacaqdır. Stalin rejiminin erməni əlaltılarının iştirakı ilə xaincəsinə fars şovinizminin qanlı pəncələrinə həvalə edilən Cənubi Azərbaycan milli hökumətinin taleyi erməni xəyanətkarlığı və rus şovinizminin birləşməsi nəticəsində işğal edilmiş iyirmi faiz Şimali Azərbaycan torpaqlarının taleyindən o qədər də fərqlənməmişdir. Qaniçən atası Rza şahdan heç də geri qalmayan Məhəmməd Rza Pəhləvi Cənubi Azərbaycan xalqına qarşı milli-mədəni soyqırımı siyasətini davam etdirməyə başlamışdı. Həbs edilənlər, sürgünə göndərilənlər, ölümə məhkum edilənlər, vətəndən didərgin salınanlar sırasında nasirlər də var idi. Bütün bunlar isə janrın inkişafına ağır zərbə vurmaya bilməzdi.

Bu dövrün nəsrini ənənələrdən ayrılmağa qoymayan sənətkarlar arasında Gəncəli Səbahinin adını xüsusi qeyd etmək lazımdır. Onun xüsusilə "Həyat faciələrindən" adlı povesti irtica illərinin bütün dəhşətlərini bədii sözün qüdrəti ilə oxucuya çatdırmaq baxımından böyük əhəmiyyət kəsb etmişdir. 1950-ci ildə qələmə alınmış, ancaq duz otuz il sonra - 1980-ci i1də işıq üzü görmüş "Həyat faciələri" povesti, adından da göründüyü kimi, sənətkarın ətrafında görüb müşahidə etdiyi, bədii təhlil süzgəcindən keçirərək ümumiləşmiş şəkildə qələmə aldığı insan talelərinin, faciələrinin bədii təcəssümüdür.

Ancaq buna baxmayaraq, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra şimalla cənub arasında istər siyasi və iqtisadi, istərsə də ədəbi-mədəni əlaqələrin xeyli genişlənməsi bütövlükdə Güney Azərbaycan ədəbiyyatının inkişafına da güclü təkan vermişdir. Lakin əvvəlki mərhələlərdə olduğu kimi, burada da biz daha çox mənzum janrın inkişafından və sayca zənginləşməsindən danışa bilərik. Nəsrə gəldikdə isə onun inkişafında, janrca və sayca zənginləşməsində müəyyən problemlərin olduğunu görürük ki, bu da müəyyən obyektiv və subyektiv səbəblərlə bağlıdır. Bunların arasında xüsusən səksəninci illərin ikinci yarısından başlayaraq İran İslam Respublikasında totalitar rejimin güclənməsi, müəyyən mövzuların bədii ədəbiyyata gətirilməsinə, onların problem səviyyəsinə qaldırılmasına qadağa qoyulması, bəzən rəsmi dairələr tərəfindən aktual həyat həqiqətlərinin olduğu kimi bədii inikas etdirilməsi yolunda maneələr yaradılması və digər səbəbləri göstərmək olar.

Bütöv bir millətin dilini çoban dili, qeyri-elmi dil, primitiv dil adlandıraraq həmin dildə çap olunmuş kitabları, hətta müqəddəs Quranın türkcə tərcüməsini belə yandırmağa hazır olan şah rejimi nümayəndələrinin işləklərini, ancaq bəşər mədəniyyətinin quduz düşməni olan, Avropanın göbəyində kitablardan tonqal qalayan faşistlərin qeyri-insani hərəkətləri ilə müqayisə etmək olar.

Bütövlükdə çağdaş Güney Azərbaycan nəsri 80 illik formalaşma və inkişafı dövründə keşməkeşli bir yol keçmiş, bəzən coşqun inkişafın, bəzən süstlük və durğunluğun dadını da hiss etmişdir. Ancaq bütövlükdə bu hərəkatın inkişaf xətti yüksələn olmuşdur və indi də həmin istiqamətdə öz yürüşünü davam etdirir.

***Mahmizər MEHDİBƏYOVA,***
***filologiya üzrə fəlsəfə doktoru***

# REGİONLAR

## "Yeni Qarabağnamə" kitabı Ağdamda təqdim olunub

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktorunun müavini Ramil Hüseyn Ağdam rayonunda "Yeni Qarabağnamə" kitabını təqdim edib.



Təqdimat Ağdam Rayon İcra Hakimiyyəti və Ağdam Dövlət Sosial-İqtisadi Kollecinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində keçirilib. Təqdimetmə zamanı R. Hüseyn Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında postkonflikt quruculuğu haqqında ətraflı məlumat verib. Mərasimdə Dövlət Sosial-İqtisadi Kollecinin müəllim və tələbləri iştirak ediblər.

## Zəngilanın əsas inkişaf istiqamətləri açıqlanıb

Zəngilanın davamlı gələcəyinə birbaşa töhfə verəcək beş əsas inkişaf istiqaməti var. Kənd təsərrüfatı, mədən sənayesi, nəqliyyat və logistika, turizm, yaşıl enerji bu istiqamətlərə daxildir.

Trend-in məlumatına görə, bunu Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışa dair I




Dövlət Proqramı çərçivəsində görülmüş işlər və qarşıda duran planlar barədə brifinqdə deyib.

V.Hacıyev qeyd edib ki, Zəngəzur dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsində dəmir yolu xətti üzrə işlərin 40 faizi, avtomobil yolunda isə 70 faizi tamamlanıb. Şərqlə Qərb ölkələrini birləşdirə biləcək Zəngəzur dəhlizinin tərkib hissəsi olan dəmir yolu və avtomobil yollarında tikinti prosesi davam edir.

"Şərqi Zəngəzurun yenidən qurulması prosesində bizim kifayət qədər çətinliklərimiz olsa da, eyni zamanda böyük imkanlar var. Əsas problemlərdən biri minalardan təmizləmə və təhlükəsizliklə bağlı idi. Şəhər və kəndlərdə dayanıqlılığa nail olmaq üçün təhlükəsizliyin, sabitliyin və əmin-amanlığın təmin edilməsi birinci prioritetdir. Yenidənqurma səylərinə və məcburi köçkünlərin təhlükəsiz qayıtmasına əsas maneələrdən biri işğaldan azad edilmiş ərazilərin mina və digər partlayıcı qurğuları ilə kütləvi şəkildə çirklənməsidir. Hazırda Şərqi Zəngəzurun minalardan təmizlənməsi prosesi davam edir", - deyə V.Hacıyev bildirib.

◆İlə yekun vurulur

## Qusarlıların zəhməti hədər getməyib

### Əkin sahələrinin çox hissəsi dəmyə olan rayonda 76 min tona yaxın taxıl istehsal edilib

**Qusar şimal bölgəsinin iqtisadi inkişafında xüsusi çəkiyə malikdir. Bu rayonda aqrar sahənin inkişafı, fermerlərin problemlərinin həlli, kənd təsərrüfatı məhsulları istehsalçılarına məxsusi diqqət göstərilməsi Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin prioritet fəaliyyət istiqamətləridir.**

Mərkəzin kollektivi daim fermerlərlə əlaqə saxlayır, onların üzləşdikləri çətinlikləri vaxtında həll etməyə çalışır və bu zaman dövlətin aqrar sektorun inkişafına verdiyi güclü dəstəkdən yararlanır.

Əksər kənd rayonları kimi Qusar əhalisinin də əsas məşğuliyyəti əkinçilikdir. Əkinçilik rayon iqtisadiyyatının 42 faizindən çoxunu təşkil edir, baxmayaraq ki, rayonda kənd təsərrüfatı bitkiləri əsasən dəmyə şəraitində əkilib becərilir. Yeri gəlmişkən qeyd edək ki, rayon üzrə 84700 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi mövcuddur ki, bunun 29358-i suvarılan, 55342 hektarı dəmyə torpaqlarıdır.

2022-ci ilin məhsulu üçün Qusarda 23304 hektarda taxıl əkilmişdi. Onun 15120 hektarı buğda, 8184 hektarı arpa, 18 hektarı qarabaşaq olmuşdu. Taxıl sahələrində xəstəlik və ziyanvericilərə, alaq otlarına qarşı kimyəvi və aqrotexniki tədbirlər düzgün və vaxtında aparılmış, bitkilərin inkişaf fazasından asılı olaraq yemləmə gübrələrdən düzgün istifadə edilmişdir. Bu hesaba zəmilərdən 49,7 min tondan çox buğda, 26 min tondan çox arpa, 12,3 min ton qarabaşaq biçilmişdir.

Bağçılıq da rayonun ənənəvi sahəsi sayılır. Bu sahənin inkişafına, intensivləşdirilməsinə daim diqqət yetirilir. Cari ilin 11 ayı ərzində rayon üzrə 485 hektar sahədə təzə intensiv meyvə bağları salınıb.

Bağçılıq məhsullarının istehsalına gəldikdə, son məlumata görə, rayon üzrə 57926 min ton meyvə yığılıb ki, bu da əvvəlki ildəkindən çoxdur. Toplanan məhsulun 40 min tonu alma, 42 min tonu armud, 4,7 min tonu şaftalı, 3,4 min tonu gilas, 3,1 min tonu fındıq və 2,3 min tonu digər meyvə və giləmeyvədir.

Kartof və tərəvəz sahələrindən də bol məhsul tədarük edilib. Kartof tarlalarından 32,5 min tondan çox, kələmliklərdən 7,9 min, soğan əkilmiş ərazidən 2,7 min ton məhsul əldə olunub. Cəmi rayon üzrə 3642 hektar kartof və tərəvəz sahələrindən 56,6 min ton məhsul yığılıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***



## LDU-nun 30 illik yubileyi qeyd edilib

**Lənkəran Dövlət Universitetinin (LDU) 30 illik yubileyi təntənəli şəkildə qeyd edilib.**

Yubiley tədbirində ölkənin təhsil ictimaiyyətinin nümayəndələri, deputatlar, digər ali təhsil ocaqlarının rektorları, tanınmış elm xadimləri, LDU-nun təhsil uğurları ilə seçilən məzunları iştirak ediblər.

LDU-nun rektoru Natiq İbrahimov yubiley tədbirində çıxış edərək, universitetin 30 ildə keçdiyi inkişaf yolundan söz açıb. Bildirib ki, universitet 30 il ərzində böyük uğurlara imza atıb və hazırda bu ali təhsil ocağında 5 fakültə, 13 kafedra fəaliyyət göstərir, 5400 tələbə təhsil alır.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında LDU kollektivini təbrik edib, son illərdə universitetdə görülən işləri yüksək dəyərləndirib. Nazir regionlarda ali təhsil müəssisələrinin kontingentinin artırılmasının vacibliyini qeyd edərək bildirib ki, bu, həm də regionların inkişafı deməkdir, təhsilin əlçatanlığını təmin edir.

Nazir LDU-nun 30 illik yubileyi münasibətilə elm və təhsil nazirinin əmri ilə universitetin təhsildə fərqlənən əməkdaşlarının bir qrupunun "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı və "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Fəxri fərmanı" ilə təltif olunduğunu bildirib, təltif olunanlara mükafatları təqdim edib.

Sonra LDU-nun keçdiyi 30 illik yolu əks etdirən videoçarx təqdim edilib.

Yubiley münasibətilə universitetin bir qrup əməkdaşı fəxri fərmanı və təşəkkürnamə ilə təltif olunub.

## Azad edilmiş ərazilərin bərpasına sərf olunan vəsait açıqlanıb

Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərin bərpası üçün 4 milyard dollardan çox vəsait xərcləyib.



Trend-in məlumatına görə, bunu maliyyə naziri, hökumətlərarası komissiyanın həmsədri Samir Şərifov Azərbaycan və Səudiyyə Ərəbistanı arasında əməkdaşlıq üzrə Birgə Komissiyanın Bakıda keçirilən VII iclasında deyib.

"Biz Səudiyyə Ərəbistanının Azərbaycana qarşı işğalçılıq siyasətinə görə Ermənistanla diplomatik əlaqələr qurmamasını yüksək qiymətləndiririk və bu prinsipial mövqeyinə görə dost ölkəyə minnətdarıq. Dünən Səudiyyə Ərəbistanından nümayəndə heyəti Zəngilana səfər edib. Səfər zamanı qonaqlar erməni barbarlarının torpaqlarımızda törətdikləri vəhşiliklərlə tanış olublar", - deyə S.Şərifov bildirib.

## Qış gəldi

### Sərt keçəcəyi gözlənilən "ağ" fəslə yerlərdə necə hazırlaşıblar



### Ağstafa

**Bu il qış mövsümünün sərt keçəcəyi gözlənilsə də, bu, ağstafalıları narahat etmir. Çünki dediklərinə görə, soyuq mövsümə ciddi hazırlaşıblar. Bununla bağlı RİH başçısı yanında şura iclası keçirilmiş, rayonda fəaliyyət göstərən xidmət təşkilatlarının qışa hazırlıqlarının vəziyyəti ilə bağlı hesabatları dinlənilmişdir.**

Sözsüz ki, qış aylarında əhalini, eləcə də idarə, müəssisə və təşkilatları ən çox narahat edən elektrik enerjisi ilə fasiləsiz təminat məsələsidir. Bunu Ağstafa Elektrik Şəbəkəsinin kollektivi də bilir, ona görə də energetiklər işlərini ehtiyatlı tutmuşlar. Məsələn, rayonun ən iri kəndi olan Dağ Kəsəmənlinin elektrik təsərrüfatı tamamilə yenidən qurulmuşdur, o sıradan köhnə dayaqlar, açıq naqillər dəyişdirilmiş, yeni şəbəkə istifadəyə tam hazır vəziyyətə gətirilmişdir. Hazırda köhnə şəbəkənin ləğvi və abonentlərin yeni şəbəkəyə qoşulması prosesi gedir. Düzqışlaq, Kolayır, Qarahəsənli, Xılxına, Molla Cəfərli, Pirili, Kolxəlfəli kəndlərinin də elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması üçün tədbirlər görülmüşdür. Şəkərli qəsəbəsi yaxınlığında isə 35/10 kilovoltluq elektrik yarımstansiyası tikilmişdir. Həmin yarımstansiyanın istifadəyə verilməsi ilə adları çəkilən yaşayış məntəqələrindən savayı, Poylu, Zəlimxan, Aşağı Kəsəmən, Qıraq Kəsəmən kəndlərinin də elektrik enerjisi ilə təminatı yaxşılaşmış, həmçinin Ağstafa şəhərinin mərkəzində və Poylu qəsəbəsindəki elektrik yarımstansiyalarının yükü azalmışdır.

Rayonda əhalinin işıqdan az əhəmiyyət kəsb etməyən mavi yanacağa olan tələbatının ödənilməsi üçün də tədbirlər görülmüşdür. Şəmkir Regional Qaz İstismarı İdarəsi Ağstafa Xidmət Sahəsi tərəfindən daxili imkanlar hesabına təchizatın yaxşılaşdırılması məqsədilə şəhərin bir neçə küçəsində yerüstü qaz xətti çəkilmiş, müxtəlif diametrli 180 paqonmetr (pm) qaz xətləri yenisi ilə əvəz olunmuşdur. Müharibə iştirakçılarının və qazilərin müraciətləri ilə 76 pm qaz xəttinin yeri qismən dəyişdirilmiş, Qıraq Kəsəmən kəndində 466 pm yeni qaz xətti çəkilmiş və həmin xətt üzərində 12 evə təbii qaz verilmişdir. Paralel olaraq xətlərdədki qaz sızmasının qarşısı alınmış, müxtəlif ünvanlarda korroziyaya uğramış 139 pm qaz xətti yerüstü xətlə əvəz edilmişdir.

Ağstafa Mənzil-Kommunal Təsərrüfatı Birliyi isə çoxmənzilli yaşayış binalarının tüstü və havalandırıcı şaxtalarında təmizləmə işləri aparmış, yaşayış binalarının dam örtüklərini, fasadlarını təmir etmiş və digər işlər görmüşdür. İstilik Sistemləri İstismarı Sahəsi də balansında olan qazanxanalarda cari təmir işləri aparmışdır. Hazırda istilik verilən çoxmənzilli yaşayış və ictimai binalarda problem yaşanmır.

Ağstafa Su-Kanal Sahəsinə gəldikdə, idarənin kollektivi əhalinin şaxtalı günlərdə fasiləsiz su ilə təmin olunması üçün siyirtmələri təmir etmiş, ehtiyac olan yerlərdə yeni siyirtmələr quraşdırmış, bəzi binaların zirzəmilərindəki su xətləri və dik dayaqları işlək vəziyyətə gətirmişdir.

### Goranboy

Cari ildə Goranboyda qışa ciddi hazırlaşıblar. Hələ yaydan bununla bağlı tədbirlər planı tərtib edilmiş, görüləcək tədbirlərə nəzarət etmək üçün icra hakimiyyətində xüsusi komissiya yaradılmışdır. Həftədə bir dəfə komissiyanın yığıncağı keçirilməklə görülən işlər müzakirə edilmişdir.

Qışa hazırlıq işləri çərçivəsində ən çox diqqət yetirilən sahə məktəblərin isidilməsidir. Goranboydakı 78 ümumtəhsil və 32 məktəbəqədər tərbiyə müəssisəsi bütün ölkə ərazisində olduğu kimi, noyabrın 15-dən qış rejiminə keçmişdir. Məktəblərdən 39-u odun, 11-i dizel, 20-si kombi, 8-i elektrik enerjisi, bağçalardan 26-sı odun, 6-sı kombi sistemi ilə təchiz olunmuşdur. Lakin bəzi məktəblərin binası qəzalı vəziyyətdə və ya əsaslı təmirə ehtiyacı olduğundan istilik təchizatında problemlər mövcuddur. Goranboy şəhər 2 nömrəli və Səfikürd kənd tam orta məktəbləri həmin problemi yaşayan təhsil müəssisələrindəndir.

Gəncə Regional Qaz-İstismar İdarəsinin Goranboy rayonu üzrə Xidmət sahəsi iddia edir ki, qışa hazırlıqla bağlı tədbirlər planına vaxtında və keyfiyyətlə əməl etmişdir. Məsələn, Dəliməmmədli şəhərinə polad boru ilə 150 metr yeni qaz xətti çəkmiş, daşıyıcı qaz xəttinin 1480, Qarasüleymanlı kəndinə gedən borunun 400 paqonmetr (pm) hissəsində boyanma işləri aparmışdır. Bunlardan əlavə, sahənin işçiləri Goranboy şəhərində istismara yararsız 1800 pm qaz xəttini yenisi ilə əvəz etmiş, Şahməmmədli, Veyisli və Rəhimli kəndlərində daşıyıcı qaz xətlərində müvafiq təmir-bərpa işləri aparmış, ümumilikdə rayon ərazisində 20 dəst müxtəlif diametrli siyirtmələr, 10 dəst yeni qaz tənzimləyici şkaflar quraşdırmışlar.

Elektrik enerjisinə gəldikdə, Mərkəzi Aran Regional Elektrik Təchizatı İdarəsinin Goranboy Elektrik Şəbəkəsi tərəfindən Gürzallar kəndində 200, Todan kəndində 150 metal dayaq quraşdırılmış, 3000 metr sip kabel xətti çəkilmiş, Qızılhacılı qəsəbəsində 63 kilovat gücündə yeni güc mərkəzi yaradılmışdır.

23 nömrəli Yol İstismarı İdarəsi tərəfindən isə balansda olan avtomobil yollarında və yolkənarı qurğularda cari təmir işləri aparılmış, buzlaşma dövründə yola səpilməsi üçün 150 kubmetr qum ehtiyatı yaradılmış, maşın və mexanizmlər saz vəziyyətə gətirilmiş, müvafiq yanacaq və sürtkü materialları ehtiyatı görülmüşdür.

Goranboy Suvarma Sistemləri İdarəsi də qış mövsümündə suyun verilişində fasilələrin yaranmaması üçün tədbirlər həyata keçirmişdir. Kürəkçay və Qaraçay çayları məcralarında sel sularının qarşısının alınması üçün lildən və kolkosdan təmizlənməsi, Tərtər kanalının Xan arxında beton üzlüyün çəkilməsi, hidrotexniki qapıların quraşdırılması, Qarqucaq və Tatarlı kəndlərində Şır-şır arxının lildən təmizlənməsi, mövcud nasos stansiyalarının boru kəmərlərində və hidrotexniki qurğularında təmir işlərinin aparılması təmin edilmişdir.

"Aztelekom" MMC-nin Mərkəzi Aran Regional Filialının Goranboy şöbəsi də bu aylar boş dayanmamışdır. Şöbə tərəfindən dizel generatorlarının yanacaq ehtiyatı yaradılmış, rabitə avadanlıqlarına lazımi ehtiyat hissələri alınmış, rabitənin dayanıqlılığını təmin etmək, FO-48 kabelinin çəkilməsi üçün hazırlıq işləri aparılmış, kompressor siqnal qurğuları, magistral kabel və birləşdirici xətləri təmir olunmuş, Fəxralı kəndindəki elektron ATS-də 8 dirək dəyişdirilmişdir.

Goranboy Su-Kanal İdarəsi də qış mövsümünə hazır olduğuna əmindir. İdarənin məlumatına görə, Goranboy şəhərində müxtəlif diametrli 16 siyirtmə, Veyisli kəndində nasos və 6 yağ kipkəci, Goranboy şəhəri ərazisində 1000 metr kanalizasiya xətti, Goran qəsəbəsində və Qazanbulaq kəndində su boruları, Dəliməmmədli şəhərində və Xınalı kəndində subartezian nasosları saz vəziyyətə gətirilmişdir.

Bunlar adları çəkilən müəssisələrin qışa hazırlıqla bağlı gördükləri tədbirlər barədə arayışlarından götürdüyümüz faktlardır. Həmin faktların nə dərəcədə doğru və səmərəli olduğunu isə ayaq səsləri gələn qışda görəcəyik.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Rusiya ruhaniləri Qafqazda dini-mənəvi həyat barədə məlumatlandırılıblar





Dekabrın 19-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyası Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru Dəmir Muxetdinov ilə görüşüb.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaq Rusiya Federasiyası Ruhani İdarəsinin sədri, Rusiya müsəlmanlarının müftisi Ravil Qaynuddinin salamlarını Şeyxülislama çatdırıb. Dəmir Muxetdinov QMİ sədrinin bu yaxınlarda Moskvada keçirilmiş XVIII Beynəlxalq Müsəlman Forumundakı çıxışını xatırladaraq deyib ki, orada səsləndirilən fikirlər Rusiya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib.

QMİ sədri Azərbaycanda və Qafqaz regionunda dini-mənəvi həyat, o cümlədən işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri, habelə bölgədə sülhün və əmin-amanlığın bərqərar olması istiqamətində fəaliyyətlər barədə qonağı məlumatlandırıb.

Şeyxülislam Allahşükür Paşazadə Qafqaz Müsəlmanları İdarəsi ilə Rusiya Federasiyası Ruhani İdarəsi arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirib, onun da salamlarını Ravil Qaynuddinə çatdırmağı xahiş edib.

Görüşün sonunda Dəmir Muxetdinov Volqaboyu Bulqarıstanı xalqlarının İslamı qəbul etmələrinin 1000 illiyi münasibətilə nəfis şəkildə nəşr olunan "Qurani-Kərim"in rus dilindəki variantını Allahşükür Paşazadəyə təqdim edib.

❖ ❖ ❖

Dekabrın 19-da Şeyxülislam Allahşükür Paşazadə həmçinin Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin rəhbəri Akkan Suver və qrupun baş katibi Cəfər Okray ilə görüşüb.

Görüşdə tərəfləri maraqlandıran məsələlər müzakirə olunub.

Akkan Suver Şeyxülislam Allahşükür Paşazadəni gələn ilin mart ayında keçiriləcək Mərmərə Qrupu Vəqfinin toplantısına dəvət edib. Bildirilib ki, toplantı çərçivəsində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən tədbir təşkil olunacaq. Qonaq həmçinin Şeyxülislam Allahşükür Paşazadəyə cümhuriyyətin yüzilliyinə həsr olunan "Mərmərə Qrupu Vakfı" kitabını hədiyyə edib.

Dəvəti məmnunluqla qəbul edən Qafqaz Müsəlmanları İdarəsinin sədri qonaqlara "Qurani-Kərim"in nüsxələrini hədiyyə edib.

# Ermənilərin ekoloji terrorunun qarşısının alınmasında dünya birliyi həmrəylik sərgiləməlidir

**Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti beynəlxalq qurumlara müraciət ünvanlayıb. AZƏRTAC xəbər verir ki, müraciətdə deyilir:**

"Azərbaycan torpaqlarının işğal altında qaldığı 30 il ərzində xalqımıza məxsus təbii sərvətlər erməni separatçıları tərəfindən vəhşicəsinə istismar olunub, ekologiyaya böyük ziyan dəyib. 44 günlük Vətən müharibəsi erməni işğalına son qoysa da, son iki ildə erməni separatçıları tərəfindən Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdəki sərvətlərimizin talanması prosesi davam etməkdədir. Təbii resurslarımızdan qanunsuz istifadə təbiətin amansızcasına məhv edilməsi prosesi ilə paralel həyata keçirilir ki, bu da məlum problemi, sadəcə, Azərbaycan üçün deyil, bütün dünya üçün aktual edir.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq Azərbaycana məxsus təbii sərvətlərin talanmasına, təbiətin məhv edilməsinə son qoyulmasını tələb edir, bütün beynəlxalq təşkilatları, dünya birliyini bu məsələdə Azərbaycanın haqlı mövqeyini dəstəkləməyə çağırırıq.

Nəzərinizə çatdırırıq ki, sərvətlərimizin talanmasına, təbiətimizin sistemli şəkildə məhv edilməsinə etiraz əlaməti olaraq dekabrın 12-dən etibarən Şuşada ekoloji fəalların, media nümayəndələrinin, vətəndaş cəmiyyəti nümayəndələrinin, sadə vətəndaşların iştirakı ilə fasiləsiz aksiyalar keçirilməkdədir. Aksiyada məqsəd bəşəriyyətin sağlam gələcəyi, ekoloji təhlükəsizliyi naminə ermənilər tərəfindən həyata keçirilən ekoloji terrorun qarşısını almaq, bölgədə separatizmin inkişafını önləmək, ölkəmizin suveren ərazilərində Azərbaycanın nəzarətini təmin etməkdir.

Ekologiyanın sərhəd tanımadığını nəzərə alsaq, bu gün ermənilər tərəfindən Azərbaycana qarşı həyata keçirilən ekoloji terroru həm də bütün bəşəriyyətə qarşı həyata keçirilən cinayət hesab edirik. Bildiririk ki, bu cinayətin qarşısının alınmasında bütün dünya ciddi həmrəylik sərgiləməli, bu terrorun davam etməsinə, onun fəsadlarının daha da ağırlaşmasına yol verməməlidir.

Ümid edirik ki, beynəlxalq təşkilatlar, aparıcı dövlətlər, dünya ictimaiyyəti ermənilər tərəfindən həyata keçirilən ekoloji terrorun qarşısını almaq üçün Azərbaycanın səylərini praktiki şəkildə dəstəkləyəcək, bu terrora son qoymaq üçün rəsmi İrəvana ciddi təzyiqlər göstərəcəklər. Dünyanın harasında baş verməsindən asılı olmayaraq, ekoloji terrorun qarşısını almağı bütün bəşəriyyətin mənəvi borcu hesab edir və bir daha planetimizin hər bir üzvünü bu borca sadiq olmağa səsləyirik".







"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
balansında olan"Şahdağ" gəmisinin MAN D2842LE301 köməkçi mühərrikinin ehtiyat hissələrinin satın alınması məqsədi ilə
***müsabiqə elan edir***

(Uzadılma 1) Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 26 dekabr 2022-ci il, Bakı vaxtı ilə saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071**

***Tender komissiyası***

# Ermənistanın mina terroru davam edir



Azərbaycan Vətən müharibəsində qələbə qazanaraq 30 ildən artıq düşmən tapdağında olan torpaqlarını azad etdi. Məğlubiyyəti ilə barışmaq istəməyən düşmən isə yenə öz namərdliyindən əl çəkmir. Terroru dövlət siyasətinə çevirən Ermənistanın ölkəmizə qarşı mina təxribatları davam edir. Düşmən ərazilərimizi müharibədən öncə olduğu kimi, sonrakı dövrdə də minalayıb.

Qeyd edək ki, Ermənistan üçtərəfli Bəyanatın imzalanmasından sonrakı ilk aylarda mina xəritələrinin mövcudluğunu tamamilə inkar edirdi. Sonralar Ermənistan mina xəritələrinin olduğunu bildirsə də, indiyə qədər onları tam olaraq Azərbaycana verməyib. Əksinə, minaların basdırılmasını davam etdirib.

## 231 nəfər xəsarət alıb, 45 nəfər həlak olub

Vətən müharibəsindən sonra ümumilikdə 276 nəfər minaya düşüb, onlardan 123 nəfəri mülki şəxs, 153 nəfəri hərbi qulluqçudur. Mina partlaması nəticəsində 45 nəfər həlak olub. Onların da 35 nəfəri mülki şəxs, 10-u isə hərbi qulluqçudur. 231 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. Onların da 88 nəfəri mülki şəxs, 143 nəfəri isə hərbi qulluqçudur.

Müharibədən sonrakı dövrdə aşkar olunan minaların istehsal tarixlərinin 2021-2022-ci illərə aid olması onu göstərir ki, Ermənistan Laçın yolundan Azərbaycan xalqına qarşı terror siyasətini həyata keçirmək üçün istifadə edib, minalar və digər hərbi sursatlar daşıyıb.

Təkcə dekabrın 14-də Kəlbəcər rayonunun Çıraq kəndi ərazisində mina partlaması nəticəsində 4-ü mülki şəxs, 4-ü hərbçi olmaqla ümumilikdə 8 nəfər mina terrorunun qurbanlarına çevrilib. Onlardan 3-ü müxtəlif dərəcəli bədən xəsarətləri alıb, bir hərbçimiz şəhid olub. Bu, Ermənistanın Azərbaycana qarşı terror aktlarını hələ də davam etdirdiyinin göstəricisidir.

Təəssüf ki, işğal dövründə olduğu kimi postmüharibə dövründə də əksər dövlətlər bunu görməzdən gəlirlər. Erməni bədxahlarının əməllərinə susmaq, görməzdən gəlmək isə elə düşmənə ortaq olmaq deməkdir.

## Mina terroruna son

Bir həftədən çoxdur ki, Laçın-Şuşa yolunda azərbaycanlı ekofəallar, qeyri-hökumət nümayəndələri və jurnalistlərin iştirakı ilə keçirilən etiraz aksiyasında tələblərin biri də mina terroruna son qoymaqdır. Aksiyaçılar Ermənistan ərazisindən Azərbaycana silah-sursat, hərbçilərin daşınması, milli sərvətlərimizin talan edilərək ölkədən çıxarılması və digər qanunsuz əməllər üçün istifadə olunan Laçın yoluna nəzarət edilməsini və bu qanunsuzluğa son qoyulmasını tələb edirlər. Mina terroru xalqımıza qarşı ermənilər tərəfindən aparılan soyqırımı cinayətinin davamıdır.

Azərbaycanın hər qarışına nəzarət etmək dövlətimizin beynəlxalq qanunlarla qorunan suveren hüququdur. Ona görə də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərə Azərbaycan dövləti nəzarət etməlidir. Bunun sayəsində Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi mina terrorunun qarşısı alınar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Fransa "dağılır"

## Ölkədə baş verən küçə iğtişaşlarında ölən və yaralananlar var








Qətərdə başa çatmış Futbol üzrə Dünya çempionatının final oyununda Fransa yığma komandasının Argentina millisinə məğlub olmasından sonra paytaxt Parisdə, habelə Lion, Nitsa və ölkənin digər şəhərlərində iğtişaşlar baş verib. Polislə azarkeşlər arasında qarşıdurmaların baş verdiyi bildirilir.

Yerli "Le Figaro" və "Le Parisien" qəzetləri yazır ki, polis nümayişçilərə qarşı gözyaşardıcı qaz və təzyiqli sudan istifadə edib, həbs olunanlar da var.

Məlumata görə, Parisdəki Yelisey meydanında hüquq-mühafizə orqanlarının əməkdaşları etirazçıları dağıtmağa başlayandan sonra azarkeşlər polisə atəş açıblar.

Liondakı Belkur meydanı ərazisində azarkeşlər zibil qutularını yandırmağa, tüstü şaşkaları və fişənglər atmağa başlayıblar. Buna cavab olaraq polis qüvvələri gözyaşardıcı qaz və təzyiqli sudan istifadə ediblər.

BFMTV telekanalının xəbərinə görə, təxminən 15 nəfər həbs edilib. Qrenobl, Bordo və Nitsa küçələrində də iğtişaşlar baş verib. "Le Parisien" bildirib ki, Bulon-sür-Merdəki Dalton meydanında baş verən qarşıdurmada bir kişi yaralanıb və həmin ərazidə polis bir nəfəri saxlayıb.

Bundan başqa, Bordoda Qələbə meydanı ərazisində hüquq-mühafizə orqanları əməkdaşlarına hücum edən 7 nəfər həbs edilib.

Fransa Daxili İşlər Nazirliyindən verilən məlumata görə, ümumilikdə ölkə üzrə 227 nəfər saxlanılıb. Onlardan 47 nəfəri Parisdə və paytaxta yaxın yaşayış məntəqələrində saxlanılıb. Həmçinin qeyd olunub ki, aksiyalara toplaşanların qarşısını almaq üçün Paris də daxil olmaqla ölkə üzrə ümumilikdə 14 min nəfər polis cəlb olunub.

Qeyd edək ki, Fransa komandası Qətərdə keçirilən Dünya çempionatının yarımfinalında mərakeşliləri məğlub etdikdən sonra Nitsada azarkeşlər arasında qarşıdurma yaşanıb. Bu barədə xəbər verən "Le Figaro" qəzeti yazıb ki, matç başa çatandan dərhal sonra Massena meydanında bir neçə aqressiv insan qrupu əlbəyaxa dava salıb.

Məlumata görə, kapüşonlu gənclər "Rədd olsun ərəblər!", "Biz öz evimizdəyik!" və digər təhqiramiz şüarlar səsləndirərək Mərakeş millisinin pərəstişkarlarına hücum ediblər. Buna cavab olaraq fransızların ünvanına təhqirlər səsləndirilib. Münaqişənin hər iki tərəfi birinə fişənglər, daş və butulkalar, habelə küçələrdəki konteynerlərdən zibil atıblar.

Hadisə yerinə gələn polis aqressiv kütləni dağıtmaq üçün gözyaşardıcı qazdan istifadə edib.

KİV-in məlumatına görə, Monpelye və Avinyon şəhərlərində də azarkeşlər arasında toqquşmalar baş verib. İğtişaşlar Fransanın cənubundakı Monpelye kommunasında faciəyə səbəb olub. Mərakeş millisinin azarkeşləri avtomobillərdən birini mühasirəyə alaraq üzərindən Fransa bayrağını qopardıqda, sürücü qaza basaraq tarana gedib. Nəticədə 14 yaşlı bir yeniyetmə təkərlərin altında qalaraq həlak olub.

Regional hakimiyyət orqanlarının məlumatına əsasən, yeniyetmə təcili olaraq xəstəxanaya aparılıb, lakin ilkin tibbi yardımdan qısa müddət sonra dünyasını dəyişib.

Fransa rəsmiləri onun ölümünü təsdiqləyib və hadisə ilə bağlı təcili araşdırma aparacaqlarını bildiriblər. Talanlar ölkənin digər şəhərlərini də bürüyüb. Kütləvi qarşıdurmalar qonşu Belçikada da olub.

Nant, Tuluza və digər şəhərlərdə isə qarşıdurma olmasa da, azarkeşlər fəal şəkildə atəşfəşanlıq ediblər. 5 polis əməkdaşının xəsarət aldığı, 170 nəfərə yaxın azarkeşin tutulduğu bildirilir.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*




# Final tanqosu



**Son 20 ildir davam edən böyük bir mübahisə yekunda başa çatdı. Artıq Lionel Messinin də dünya kuboku var. Məşhur 10 nömrənin bütün dövrlərin ən yaxşısı olmaq üçün dünya kubokuna ehtiyac olduğunu düşünənlər artıq rahatlıq taparlar.**

Qeyd edək ki, Fransa turnirin ilk matçından etibarən heyətlə bağlı zədələrə baxmayaraq, möhtəşəm futbol nümayiş etdirdi. "Xoruz"lar hər qarşılaşmada öz standartlarından yuxarı iş görən Rabio, eləcə də Mbappe, Qrizmann, Varan və Lloris kimi ulduz futbolçulara sahibdirlər. İngiltərə ilə yarımfinal qarşılaşmasından başqa demək olar ki, bütün oyunları rahat qalib başa vuraraq adlarını finala yazdırıblar. Mundialın qrup mərhələsində Səudiyyə Ərəbistanı məğlubiyyəti Argentina yığmasının növbəti qarşılaşmalara daha əlavə motivasiya ilə çıxmağına səbəb oldu. Argentina aqressiv müdafiə olunmaqla, formada olan Messiyə görə hücum planı tətbiq etdi. Xorvatiya matçına qədər Messi olmadan necə oynamaq olar sualını Alvarez və Fernandezin fərdi oyunçu keyfiyyətləri ilə cavabladılar.

Fransızlarla həlledici görüşdə Argentina millisi hücuma qoşularkən topun sol cinahda yer alan və sürətli keçidləri ilə ön planda olan Di Mariyaya ötürülməsini təmin etdi. Beləliklə, baş məşqçi Skaloni fransızların müdafiə xəttini sağ istiqamətə yönləndirməyi bacardı. Fransa millisinin hücum strategiyasında sol cinahın effektivliyi çox yüksək idi. Bu zonaya edilən təzyiq fonunda argentinalılar Ernandezlə Mbappe arasında hücum axarını pozmağı bacardılar.

Demək olar ki, Fransa oyunun ikinci hissəsinin sonlarına kimi meydançada yox idi. Lakin qarşılaşmanın 70-ci dəqiqəsindən sonrakı hissəsində əsl finala şahidlik etdik. Fransada baş məşqçi Didye Deşamın etdiyi dəyişikliklərlə yanaşı, argentinalıların da yorğunluğu, üstünlüyü Avropa təmsilçisinə verdi. Bu dəfə Mbappenin ifasında möhtəşəm qollar izlədik. Toplu və topsuz oyunda Argentinaya üstünlük quran Fransa seçməsi iki dəqiqə ərzində hesabda tarazlığı bərpa etdi. Hakimin əlavə etdiyi 30 dəqiqədə komandalar hərəyə bir dəfə də fərqlənməyi bacardılar. Bu dəfə də Messi-Mbappe duelinin şahidi olduq. Yekunda qalibi müəyyənləşdirmək üçün penalti zərbələrini daha dəqiq yerinə yetirən (4:2) Argentina 36 illik fasilədən sonra Dünya çempionu ünvanına sahib oldu.

Xatırladaq ki, Dünya çempionatları tarixində birinci dəfə 1930-cu ildə finala vəsiqə qazanan argentinalılar ilk sınaqlarından məğlub ayrılıb. Komanda Uruqvaya 2:4 hesabı ilə uduzub.

*... Messi artıq uzun illərdir xəyalını qurduğu dünya kubokunu başı üzərinə qaldırdı. İllərdir, "görəsən, dünya futbolu məşhur argentinalıya kubok borcunu qaytaracaqmı" sualı da öz cavabını tapdı.*

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***






## Argentina 36 illik fasilədən sonra 3-cü dəfə Dünya çempionu oldu

**"DÇ-2022", Final**

**Argentina - Fransa - 3:3 (Penaltilər seriyası - 4:2)**

**Qollar:** Lionel Messi, 13-pen.(1:0), Di Mariya, 36 (2:0), Kilian Mbappe, 80-pen. (2:1), 82 (2:2), Lionel Messi, 109 (3:2), Kilian Mbappe, 118-pen. (3:3)

**Baş Hakim:** Şimon Marçinyak (Polşa)

**"Lusail" stadionu**

"Tanqoçu"lar 1978-ci ildə Sesar Luis Menotti və 1986-cı ildə Karlos Bilardonun baş məşqçilik etdiyi mundialların "qızıl"ını qazanıb. 1986-cı ildə Qərbi Almaniya üzərində 3:2 hesablı qələbə qazanaraq, Dünya çempionu olduğu ildə Argentinaya əfsanəvi Dieqo Maradona kapitanlıq edirdi.

Argentina yığmasının heyətinin dəyəri 608 milyon avrodur. Komandanın ən bahalı futbolçusu Lautaro Martinesdir. "İnter"də çıxış edən hücumçunun qiyməti 75 milyon avrodur. Millinin kapitanı futbol tarixinin ən yaxşı oyunçularından hesab edilən Lionel Messidir. "Tanqoçu"ları Lionel Skaloni çalışdırır. 44 yaşlı mütəxəssis 2018-ci ilin avqustundan millinin sükanı arxasındadır.

## Messiyə hədiyyə edilən geyim

"DÇ-2022"-nin mükafatlandırma mərasimində Argentina millisinin kapitanı Lionel Messinin geyindiyi üst geyimi diqqət çəkib. Qətər əmiri Təmin bin Həməd əs-Saninin Messiyə hədiyyə etdiyi bu geyim "Bişt" adlanır. Qətər kişilərinin geyindiyi və ərəb mədəniyyətini simvolizə edən "Bişt" ən dəbdəbəli parçadan hazırlanır və yalnız mühüm bayramlarda nazirlər, eləcə də digər vəzifəli şəxslər tərəfindən geyinilir. Ərəb mədəniyyətinə görə, sözügedən libası geyinmək üçün bu şərəfə nail olmaq lazımdır.

## Deşam məğlubiyyəti qəbul etmir



"Məyusluq çox böyükdür. Turnirdən əvvəl və turnir ərzində vəziyyət asan deyildi. Lakin bu, bəhanə də deyil. Bu Dünya çempionatında heyət və oyunçular üçün əsl xoşbəxtlik idi".

Qol.az xəbər verir ki, bu sözləri Fransa millisinin baş məşqçisi Didye Deşam finalda Argentinaya penaltilər seriyasında 2:4 hesabı ilə uduzduqları oyundan sonra deyib. "İlk 60 dəqiqə ərzində heç nəyi düzgün etmədik. Keyfiyyət və cəsarətlə hər şeyi bərabərləşdirdik. Əlimizdən gəldiyi qədər çalışdıq. Penaltilərə qədər oyunu apardıq. Çox böyük çətinlikləri aşdıq. Son 4 gündə bir çox problemimiz oldu. Xəstəliklər bizə çox təsir etdi. Məğlubiyyəti qəbul etmək çətindir. Daha əvvəl Dünya çempionu olmuşduq, amma bu uğuru təkrarlamaq asan deyildi. Yekunda kuboku qazana bilmədik", - deyə o bildirib.

Mütəxəssis millidəki gələcəyi ilə bağlı bunları söyləyib: "2023-cü ilin əvvəlində Fransa Futbol Federasiyasının prezidenti ilə görüşüm olacaq. Onunla bu məsələni müzakirə edəcəyik. Qalib gəlsək də, eyni şeyi deyərdim. Bu məsələ vaxt tələb edir".

## Əşrəf Hakimi FİFA prezidentini tənqid edib




Mərakeş millisinin futbolçusu Əşrəf Hakimi FİFA prezidenti Canni İnfantinonun ünvanına sərt fikirlər səsləndirib.

Bu barədə "Sport1" məlumat yayıb. Müdafiəçi 3-cü yerin mükafatlandırma mərasimindən əvvəl İnfantinonu tribunaların altındakı otaqda tapıb və orada futbol təşkilatının rəhbərini tənqid edib. Hakimi FİFA-nı Mərakeşin Dünya çempionatının medallarını qazanmasını istəməməsi ilə bağlı ittiham edib. Əşrəf üçüncü yer uğrunda oyuna, eləcə də Fransa ilə yarımfinala (0:2) hakim təyinatından da narazılığını bildirib.

Hadisədən sonra Hakimi paltardəyişmə otağına aparılıb. İnfantino futbolçunun hərəkətinə təəccüblü və sakit reaksiya verib. Hakiminin qəzəbinə səbəb ikinci hissədə Xorvatiyanın qapısına təyin olunmamış penalti olub.

Qeyd edək ki, Mərakeş "DÇ-2022"-nin 3-cü yer uğrunda keçirilən görüşdə Xorvatiyaya 1:2 hesabı ilə uduzub.

## Tarixin üçüncüsü

"DÇ-2022"-nin oyunlarındakı ümumi tamaşaçı sayı bəlli olub. Qətərdəki mundialın 64 oyununu ümumilikdə 3 milyon 404 min 252 seyrçi izləyib.

Bu, Dünya çempionatları tarixində 3-cü göstəricidir. Yalnız ABŞ-1994 (3 milyon 568 min 567) və Braziliya-2014-də (3 milyon 441 min 450) daha yüksək göstərici qeydə alınıb.





## Mundialın ən yaxşıları

"DÇ-2022"-nin ən yaxşıları müəyyənləşib. Çempion Argentina millisinin hücumçusu Lionel Messi turnirin ən yaxşı oyunçusu seçilib. Argentina yığmasının 21 yaşlı yarımmüdafiəçisi Enzo Fernandes turnirin ən yaxşı gənc oyunçusu, Emiliano Martines isə ən yaxşı qapıçı seçilib.

Turnirin "Qızıl buts" mükafatı isə Fransa millisinin hücumçusu Kilian Mbappeyə təqdim olunub. O, ən yaxşı bombardir (8 qol) olduğu üçün bu mükafata layiq görülüb.

Xatırladaq ki, Argentina-Fransa matçının əsas vaxtı 2:2 hesabı ilə başa çatıb. Komandalar əlavə vaxtda hərəyə daha 1 qol vurduqları üçün qalib penaltilər seriyasında müəyyənləşib. Burada daha dəqiq olan Argentina 4:2 hesabı ilə qalib gələrək Dünya çempionu olub.

## "Daha da güclü qayıdacağıq"

Mərakeş millisinin baş məşqçisi Valid Reqraqi 3-cü yer uğrunda görüşdə Xorvatiyaya 1:2 hesabı ilə uduzduqları oyundan sonra fikirlərini bildirib. O, ən yaxşı 4 komanda arasında olduqları üçün qürur duyduğunu deyib:

"Ardıcıl ikinci matçda məğlub olmaq çox məyusedicidir, lakin oyunçular əllərindən gələni etdilər. Fiziki cəhətdən çox çətin idi. Komandanın yarımfinaldan sonra özünə gəlməyə praktiki olaraq vaxtı yox idi. Azarkeşlərimiz üçün qələbə qazanmaq istəyirdik. Bu Dünya çempionatından dərs çıxaracağıq. Biz də xoşbəxtik, çünki bu turnirdə 4-cü olduq. Xorvatiya bürünc medalı haqq etdi. Onları təbrik edirəm. Biz nəticə çıxaracağıq və daha da güclü qayıdacağıq".



## Ançelottidən açıqlama

"Real"ın baş məşqçisi Karlo Ançelotti Lionel Messinin Argentina millisi ilə "DÇ-2022"-nin qalibi olması və Portuqaliya yığmasının üzvü Kriştiano Ronaldu haqqında danışıb.



Mütəxəssis hər 2 futbolçunun əfsanəvi oyunçular olduğunu deyib: "Bu rəqabət həm Messini, həm də Ronaldunu motivasiya etdi. Ötən illər ərzində onlar futbol dünyasının əsas memarları olublar - çox yaxşı oynadılar və çoxlu qollar vurdular. Messi karyerasını Dünya çempionluğu ilə başa vuracaq. Ronaldu isə əksinə. Lakin hələ də Ronaldunun əla karyerası var. Xüsusilə burada - "Real"da oynadığı vaxtlarda əla çıxış edirdi. O, hər zaman azarkeşlərin qəlbində olacaq.

Ronaldunun gələcəkdə nə edəcəyini bilmirəm. O, hələ də çox yüksək səviyyədə mübarizə aparmaq istəyir. Düşünmürəm ki, ərəb dünyası bu baxımdan ona yaraşır".

## Martinezdən açıqlamalar

"Bu, əziyyət çəkdiyimiz matç idi. Komandamız vəziyyətə nəzarət etsə də, rəqib oyuna qayıtdı. Çətin matç oldu. 3:2 önə keçdik, lakin onların penalti vurmaq şansı var idi, bunu bacardılar. Sonda rəqibin də qol vurmaq şansı oldu, ancaq ayağımla topa zərbə vurmağı bacardım. Arzum gerçəkləşdi, sözüm yoxdur".

Bu sözləri Argentina millisinin qapıçısı Emilino Martines finalda Fransaya penaltilər seriyasında 4:2 hesabı ilə qalib gəldikləri oyundan sonra deyib: "Penaltilər seriyasına qədər sakit idim. Komanda yoldaşlarıma həmişə deyirəm ki, bu məqamlarda sakit olun. Mən bu qələbəni ailəmə həsr edirəm".



## Mbappedən daha bir uğur

Fransa millisinin hücumçusu Kilian Mbappe mundialın finalında Argentina ilə görüşdə dubl etməklə tarixə düşüb.

"DÇ-2018"-in finalında Xorvatiyaya (4:2) qol vurmuş futbolçu dünya rekordunu təkrarlayıb. Onun kimi Dünya çempionatlarının finallarında 3 qol vurmuş futbolçular bunlardır: Vava, Pele (hər ikisi Braziliya), Ceff Hörst (İngiltərə) və Zinəddin Zidan (Fransa).

# "Azərişıq" ASC tərəfindən göstərilən xidmətlər elektronlaşdırılıb





**Masallı "ASAN xidmət" mərkəzində "Azərişıq" ASC-nin "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində 2022-ci il ərzində gördüyü işlər barədə mətbuat konfransı keçirilib.**

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, "Azərişıq" ASC Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, görülən işlər çərçivəsində "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində Elektron Müraciətlərin İdarə Olunması Sistemi (EMİOS) vasitəsilə göstərilən xidmətlərin mərhələli şəkildə "Elektron hökumət" portalına inteqrasiyasını tam təmin edib. Göstərilən elektron xidmətlər bu sahədə şəffaflığın, operativliyin təmin edilməsi, xidmətlərin keyfiyyətinin yüksəldilməsi, abonentlərə rahat və müasir elektron platforma üzərindən onlayn müraciət etmə imkanı yaradır.

Mətbuat konfransında "ASAN xidmət"lə İş departamentinin direktor müavini İnam Yusifov bildirib ki, "Azərişıq" ASC tərəfindən göstərilən xidmətlərdən 12-si tam elektronlaşdırılaraq vətəndaşların istifadəsinə verilib. Cari ildə "Azərişıq" ASC-yə "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzləri vasitəsilə və elektron qaydada enerji təchizatı şəbəkəsinə qoşulması məqsədilə 51 minə yaxın müraciət daxil olub. Bunlardan 44 mini əhali, 7 mini qeyri-əhali müraciətidir.

Borcun olmaması barədə sənədin verilmə müraciətlərinin qəbulu, əhali və qeyri-əhali istehlakçısının aktiv və passiv edilməsi barədə elektron müraciət, elektrik təchizatı sistemlərinin layihələndirilməsi və quraşdırılma işləri, istehlakçının balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi, məcburi köçkün qrupuna aid abonentlərdən müraciətlərin qəbulu, yük hesabatının hesablanması, abonentin geniş tarixçəsinin verilməsi, əhali abonentinin enerji təchizatı şəbəkəsinə qoşulması, əhali istehlakçısının ad dəyişdirilməsi, əhali və qeyri-əhali abonentinin sayğac zədələnməsinin araşdırılması, enerji haqlarının internet vasitəsilə ödənilməsi, qeyri-əhali abonentinin enerji təchizatı şəbəkəsinə qoşulması xidmətlərindən yararlanmaq üçün www.azerishiq.az, www.e-gov.az və ya e-service.azerishiq.az portalı vasitəsilə müraciət etmək mümkündür.

İnteqrasiyası təmin edilən dövlət qurumları isə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Dövlət Vergi Xidməti, Qaçqınların və Məcburi köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Elektron Hökumətin İnkişafı Mərkəzi (e-gov.az, asanpay.az), "ASAN Xidmət", Ədliyyə Nazirliyi və "Kapital Bank"dır.

# 2023-cü il üçün iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2022-ci il 15 dekabr tarixli Qərarı ilə 2023-cü il üçün iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, gələn il üçün iş vaxtı normasında bildirilir ki, Əmək Məcəlləsinə və Nazirlər Kabinetinin "2023-cü il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" 2022-ci il 9 dekabr tarixli 438 nömrəli Qərarına əsasən 2023-cü ildə aşağıdakı günlər iş günü hesab edilmir:

1, 2 yanvar - Yeni il bayramı;
20 yanvar - Ümumxalq Hüzn Günü;
8 mart - Qadınlar günü;
20, 21, 22, 23, 24 mart - Novruz bayramı;
21, 22 aprel - Ramazan bayramı;
9 may - Faşizm üzərində Qələbə günü;
28 may - Müstəqillik Günü;
15 iyun - Azərbaycan Xalqının Milli Qurtuluş Günü;
26 iyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü;
28, 29 iyun - Qurban bayramı;
8 noyabr - Zəfər Günü;
9 noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü;
31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü.

2023-cü ildə həftələrarası istirahət günlərinin iş günləri hesab olunmayan bayram günləri ilə üst-üstə düşməsi ilə əlaqədar olaraq beşgünlük iş həftəsində 3, 4 yanvar, 24 aprel, 29 may tarixləri, altıgünlük iş həftəsində 3 yanvar, 29 may tarixləri istirahət günləridir.

2023-cü ilin fevral ayı 28 təqvim günündən, il isə 365 təqvim günündən ibarətdir.

2023-cü ildə beşgünlük iş həftəsində 240 iş günü (onlardan 7-si bayramqabağı və Ümumxalq Hüzn Günü qabağı iş günləridir), iş günü hesab edilməyən 109 istirahət günü (onlardan 4-ü iş günü hesab edilməyən bayram günləri ilə üst-üstə düşməsinə görə müəyyən edilən), iş günü hesab edilməyən 19 bayram (4-ü istirahət günləri ilə üst-üstə düşən) və 1 Ümumxalq Hüzn Günü vardır.

Azərbaycanda gündəlik normal iş vaxtının müddəti 8 saatdan, gündəlik normal iş vaxtına uyğun olan həftəlik normal iş vaxtının müddəti 40 saatdan artıq ola bilməz. Bir qayda olaraq, iki istirahət günü olan beşgünlük iş həftəsi müəyyən edilir.

2023-cü ilin iş vaxtı norması 40 saatlıq beşgünlük iş həftəsi üzrə 8 saatlıq iş günü hesabından müəyyən edilir. 2023-cü il üçün 40 saatlıq iş həftəsində iş vaxtının illik norması 1913 saatdır.

Altıgünlük iş həftəsi tətbiq edilərkən həftəlik norma 40 saat olduqda gündəlik iş vaxtının müddəti 7 saatdan və bilavasitə səhərisi gün istirahət günü olan iş gününün müddəti isə 6 saatdan çox ola bilməz.

Altıgünlük iş həftəsi olan iş yerlərində 40 saatlıq iş həftəsində çalışan işçilər üçün 2023-cü ildə beşgünlük iş həftəsi üzrə hesablanmış 1913 saatlıq illik iş vaxtı norması tətbiq edilməlidir.

Qeyd edək ki, hər il üçün təsdiq edilən iş vaxtı norması və istehsalat təqvimləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytının "İstehsalat təqvimləri" altbölməsində (https://sosial.gov.az/istehsalat-teqvimi-2023) yerləşdirilib.

# Hava yağıntılı və küləkli olacaq

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında gün ərzində havanın arabir yağıntılı olacağı gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun anomal gedişi gözlənilir, gecə 8°-dək isti, gündüz 5°-dək isti olacaq. Atmosfer təzyiqi 769 millimetr civə sütunundan 775 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-5°, gündüz 5-8° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacağı proqnozlaşdırılır.







## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmiləri üçün nasosların satın alınması məqsədilə açıq *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 26 dekabr 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC "Gen.Ə.Şıxlinski" gəmisi üçün ehtiyat hissələrin satın alınması məqsədilə açıq *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 dekabr 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***


# Rusiya vətəndaşı Mixail Aleksandrov barəsində beynəlxalq axtarış elan edilib

Rusiya Federasiyasının Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun hərbi-siyasi tədqiqatlar mərkəzinin aparıcı eksperti, hüquq elmləri doktoru Mixail Aleksandrovun bu il dekabrın 13-də müxtəlif kütləvi informasiya vasitələrində verdiyi geniş auditoriya kütləsinə ünvanlanan audiomüraciətində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərə xələl gətirməyə cəhd göstərərək "Azərbaycanın bütün neft sənayesinin, enerji sisteminin raketlərlə bombalanması və tamamilə məhv edilməli olmasını" bildirməklə açıq çağırışlar edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Mixail Aleksandrovun əməllərində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 101.2-ci (kütləvi informasiya vasitələri ilə təcavüzkar müharibəni başlamağa açıq çağırışlar), 214.2.3-cü (odlu silahdan istifadə etməklə terrorçuluğun törədiləcəyi ilə hədələmə) və 283.2.1-ci, 283.2.2-ci (qulluq mövqeyindən yararlanaraq zor tətbiq etməklə milli nifrət və düşmənçiliyin salınması) maddələrinin tərkib əlamətləri olduğundan dekabrın 19-da Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən həmin maddələrlə cinayət işi başlanmaqla ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunub.

İttiham üçün əsas verən kifayət qədər sübutlar toplandığından Mixail Aleksandrovun Cinayət Məcəlləsinin qeyd edilən maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar qəbul olunub, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilməklə İNTERPOL vasitəsilə beynəlxalq axtarışı elan edilib.

Eyni zamanda bir sıra tərəfdaş dövlətlərin səlahiyyətli orqanlarına təqsirləndirilən şəxsin həmin ölkələrin ərazisinə daxil olduqda dərhal tutularaq istintaqa cəlb edilməsi üçün Azərbaycan Respublikasına verilməsinin təmin olunması məqsədilə müraciətlər göndərilib.

Hazırda cinayət işi üzrə intensiv istintaq tədbirləri davam etdirilir.

Baş Prokurorluq bəyan edir ki, ölkəmizin milli mənafeyi, təhlükəsizliyi və ərazi bütövlüyü əleyhinə yönələn istənilən təxribat xarakterli fəaliyyətlə bağlı qanunla nəzərdə tutulmuş tədbirlərin görülməsi təmin olunacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Elm və Təhsil Nazirliyi Elm, ali və orta ixtisas təhsili şöbəsinin kollektivi nazirin müşaviri Nicat Məmmədliyə atası

**YUNİS MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi konfederasiyanın üzvü "New Company" MMC-nin direktoru Əli Allahverdiyevə anası

**MƏRZİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Alyona Molokanovaya atası

**YURİ MOLOKANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"GünayBank" ASC-nin rəhbərliyi və kollektivi Bankın Müşahidə Şurasının üzvü Leyla Nağıyevaya atası

**ABUZƏR NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 538-97-96, 539-84-41,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6491
Sifariş 3695
Qiyməti 40 qəpik